# REGIONAL HALAL MƏRKƏZ OLMAQ HƏDƏFİ

Son illər ölkədə aqrar ixracın genişləndirilməsi əsas iqtisadi prioritetlərdən biri kimi müəyyənləşdirilib. Bu istiqamətdə əsas hədəflərdən biri halal məhsulların istehsalı və ixracı üzrə regionun aparıcı mərkəzlərindən birinə çevrilməkdir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun sözlərinə görə, ölkəmiz halal məhsulların istehsalı, emalı və ixracı sahəsində regionun əsas oyunçularından biri olmağı hədəfləyir.




İqtisadçı Xalid Kərimli hesab edir ki, Azərbaycanın halal iqtisadiyyat sahəsində mühüm üstünlükləri var: “Əsas amillərdən biri əlverişli coğrafi mövqedir. Azərbaycan Orta Dəhliz üzərində yerləşir və bu da halal standartlarına uyğun istehsal edilmiş məhsulların Mərkəzi Asiya ölkələrinə, eləcə də Avropaya ixracı üçün əlverişli imkanlar yaradır. İkinci mühüm məsələ ölkənin güclü kənd təsərrüfatı potensialına malik olmasıdır”.

SƏHİFƏ 6-da

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

25 İYUL ŞƏNBƏ 2026 № 27 (4278) Qiyməti - 60 qəpik www.kaspi.az



## QAYIDIŞ VƏ HÜQUQİ İSLAHATLAR

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış proqramı çərçivəsində həm hüquqi, həm də praktiki addımlar atılır. Bərpa edilən yaşayış məntəqələrinə əhalinin köçürülməsi təmin edilir, yeni reallıqlara uyğun qanunvericiliyə dəyişikliklər təsdiqlənir.

SƏHİFƏ 2-də



## VALİDEYN RƏQƏMSAL DEYİLSƏ...

Uşaqların sosial şəbəkələrdən istifadəsinə nəzarəti gücləndirməyi nəzərdə tutan dəyişikliklərin icrası həm də valideynlərdən asılıdır. Xüsusilə də yaşlı valideynlərin rəqəmsal savadlılığının artırılmasına ehtiyac var.

SƏHİFƏ 9-da



## “YAYIN KABUSU”NA QARŞI ƏN TƏSİRLİ ÜSUL

Ağcaqanadlara qarşı mübarizədə kimyəvi preparatlardan normadan artıq istifadə insan sağlamlığına mənfi təsir göstərir. Xüsusilə qapalı məkanlarda istifadə edilən bəzi vasitələr uşaqlar, yaşlılar və allergiyası olan şəxslər üçün əlavə risk yaradır.

SƏHİFƏ 13-də

### ENERJİ VƏ BAĞLANTILAR SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GÜCLƏNDİRİLƏCƏK

# BAKI-BERLİN XƏTTİNDƏ YENİ DİNAMİKA



Prezident İlham Əliyevin Avropa İttifaqının lider dövlətlərindən olan Almaniyaya rəsmi səfəri ölkəmizin müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu əməkdaşlıq kursunun davamı kimi qiymətləndirilə bilər.

### BAKININ Aİ ÜÇÜN ARTAN ƏHƏMİYYƏTİ

Fridrix Merts Azərbaycanın ölkəsi üçün artan əhəmiyyətini şərtləndirən amillərə də toxunub. Bildirib ki, hazırkı böhran şəraitində xam neftin və Cənub Qaz Dəhlizi ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir: “Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik”. Onun sözlərinə görə, Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyəti də artır”.

SƏHİFƏ 3-də

### Qızıl ixracında nəzərəçarpan artım göstəricisi

# İXRACDA “QIZIL” DÖVR




Azərbaycanın qeyri-neft ixracında qızılın rolu getdikcə artır. 2026-cı ilin yanvar-may aylarında “AzerGold” QSC-nin ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 31,4 faiz artaraq 107,6 milyon ABŞ dollarına çatıb və şirkət dövlətə məxsus əsas ixracatçılar arasında ikinci yerdə qərarlaşıb. Bu göstərici qeyri-neft ixracında qiymətli metalların payının yüksəldiyini nümayiş etdirsə də, artımın dayanıqlılığı ilə bağlı suallar da gündəmə gəlir.

SƏHİFƏ 8-də



## MİLLİ MƏTBUATIMIZ 151 YAŞINDA

Geridə qalan dövr ərzində Azərbaycan milli mətbuatı xalqımızın maarifləmənməsi, milli özünüdərki və dövlətçilik ənənələrinin formalaşmasında müstəsna və əvəzedilməz rol oynayıb. Bu ənənə hazırda da davam etməkdədir.

SƏHİFƏ 4-də



## BAKININ KƏŞF EDİLMƏMİŞ TURİZM ÜNVANI

Xəzərin ən böyük adası olan Pirallahı ilk baxışdan sakitliyi və təbii gözəlliyi ilə diqqət çəkir. Təmiz küçələr, sovet dövründən qalan səliqəli yaşayış binaları, yol kənarındakı hasarlar üzərindəki rəsmlər adaya gələnlərdə nostalji hislər yaradır.

SƏHİFƏ 14-də



## MƏKTƏBLİLƏR YAY TƏTİLİNİ NECƏ KEÇİRİRLƏR?

Əvvəllər uşaqlar üçün mövcud olan yay düşərgələri və yay mütaliəsi kimi ənənələr hazırda yoxdur. Nəticədə uşaqlar nəzarətsiz boş vaxt keçirir, valideynlər isə onların istirahətini, inkişafını təmin etmək üçün alternativ imkanlar axtarırlar.

SƏHİFƏ 12-də



Özbəkistana yeni səfir təyin olunub

SƏHİFƏ 2-də



5,4 milyard manat ipoteka krediti verilib

SƏHİFƏ 10-da



Şimali Əfqanıstanda güc savaşı

SƏHİFƏ 5-də



Tərləmə ilə mübarizənin qızıl qaydaları

SƏHİFƏ 15-də



Böyük uğurların əsas memarı

SƏHİFƏ 16-da



## İlham Əliyev Şavkat Mirziyoyevi təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevə zəng edib. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Dövlət başçısı Şavkat Mirziyoyevi doğum günü münasibətilə ürəkdən təbrik edib, ona uzun ömür, cansağlığı, qardaş Özbəkistan xalqının xoşbəxt gələcəyi və firavanlığı naminə həyata keçirdiyi şərəfli ali dövləti fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər arzulayıb.

Prezident Şavkat Mirziyoyev səmimi təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək, öz növbəsində Azərbaycan xalqına firavanlıq və rifah arzulayıb.

Telefon söhbəti zamanı Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətinə toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub.



## Özbəkistana yeni səfir təyin olunub

Rəşad Eynəddin oğlu Məmmədov Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Rəşad Məmmədov Azərbaycanın Özbəkistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Qeyd edək ki, R.Məmmədov 26 iyul 2021-ci ildən Azərbaycanın Türkiyədəki səfiri vəzifəsində çalışıb.




## "İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə" dəyişib

Prezident İlham Əliyev 30 dekabr 2019-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edib. Bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb.

Fərmana əsasən, bundan sonra nazirliyin öz strukturunu və fəaliyyətini təkmilləşdirmək istiqamətində tədbirlər görmək, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək vəzifəsi dövlət başçısının müəyyən etdiyi hallara aid olmayacaq.

# QAYIDIŞ VƏ HÜQUQİ İSLAHATLAR

İşğaldan azad edilmiş ərazilərdə Daimi Məskunlaşdırma Fondu yaradılır. Belə ki, yeni yaradılacaq fonda daxil olan yaşayış sahələri vətəndaşlara artıq icarə müqaviləsi əsasında deyil, mülkiyyət hüququ əsasında veriləcək.



İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış proqramı çərçivəsində həm hüquqi, həm də praktiki addımlar atılmaqdadır. Bir tərəfdən bərpa edilən yaşayış məntəqələrinə əhalinin köçürülməsi təmin edilir, digər tərəfdən isə yeni reallıqlara uyğun qanunvericiliyə nəzərdə tutulan dəyişikliklər təsdiqlənir.

**DAİMİ MƏSKUNLAŞDIRMA FONDU YARADILIR**

Belə ki, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara dəyişiklik təsdiqlənib. Prezident İlham Əliyev bununla bağlı adıçəkilən qanunlara dəyişiklikləri imzalayıb.

Bu dəyişikliklərə əsasən, işğaldan azad edilmiş ərazilərdə Daimi Məskunlaşdırma Fondu yaradılır. Belə ki, yeni yaradılacaq fonda daxil olan yaşayış sahələri vətəndaşlara artıq icarə müqaviləsi əsasında deyil, mülkiyyət hüququ əsasında veriləcək.

Fondun yaşayış sahələrinə məcburi köçkünlərin köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Bundan başqa, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" qanuna edilən dəyişikliklə şəxs işğaldan azad edilən ərazidə əvvəlki yaşayış yerinin əvəzinə yeni yaşayış sahəsi aldıqda və ya imkandan imtina etdikdə statusun itirilməsi hüquqi baxımdan dəqiq müəyyən olunur.

"Məcburi köçkünlərin sosial müdafiəsi haqqında" qanuna edilən dəyişiklik isə sosial müdafiə tədbirlərinin 3 il müddətində davam etməsini dəqiqləşdirir. Bu müddətin hesablanması statusun itirildiyi gündən başlanacaq. Artıq yeni ərazilərdə mənzil almış məcburi köçkünlər də təklif olunan hüquqi imtiyazlardan yararlana biləcəklər.

## Köçürülmə prosesi də davam edir



İşğaldan azad edilmiş ayrı-ayrı yaşayış məntəqələrinə keçmiş məcburi köçkünlərin köçürülməsi prosesi də davam etməkdədir. Növbəti köçün ünvanı Cəbrayıl rayonunun Şükürbəyli kəndidir. Bu mərhələdə 12 ailə doğma yurduna qovuşub. Mənzil başına çatan ailələrə mənzillərin açarları təqdim olunub. Mərasimdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Şükürbəyli kəndi ilə yanaşı, Ağdərənin Həsənriz, Kolatağ, Aşağı Oratağ, Vəngli, Xocalının Təzəbinə, Badara, Xanabad, Daşbulaq və Seyidbəyli kəndlərinə də növbəti köç reallaşıb. Ağdərənin Aşağı Oratağ kəndinə 10 ailə, 34 nəfər, Vəngli kəndinə 6 ailə, 26 nəfər, Həsənriz kəndinə 6 ailə, 17 nəfər, Kolatağ kəndinə 3 ailə, 19 nəfər məskunlaşdırılıb. Həmçinin Xocalının Xanabad kəndinə 10 ailə, 31 nəfər, Təzəbinə kəndinə 9 ailə, 39 nəfər, Badara kəndinə 6 ailə, 24 nəfər, Daşbulaq kəndinə 2 ailə, 7 nəfər, Seyidbəyli kəndinə 1 ailə, 5 nəfər köçürülüb.

## "17 yaşında çıxmışdım, 52 yaşında qayıdıram"




Doğma yurdlarına qayıdan sakinlər də yaradılan şəraitdən və köç prosesinin uğurla reallaşmasından razıdırlar.

"Xocalının azad olunması Prezident İlham Əliyevin qətiyyətli siyasəti və Azərbaycan Ordusunun şücaəti sayəsində mümkün olub".

"Report" xəbər verir ki, bunu 17 yaşında Xocalı rayonunun Meşəli kəndindən çıxan Elşən İbadullayev Badara kəndinə köçürülən zaman deyib.

"Çox sevincliyik, Xocalı rayonunun Badara kəndinə köç edirik", - deyə 52 yaşında Xocalıya qayıdan E. İbadullayev əlavə edib.

Cəbrayıl sakini Zoya Abdullayeva bu sevinci onlara yaşatdığına görə Azərbaycan Prezidentinə və hərbçilərə minnətdarlıq edib.

# BAKI-BERLİN XƏTTİNDƏ YENİ DİNAMİKA

**Prezident İlham Əliyevin Avropa İttifaqının lider dövlətlərindən olan Almaniyaya rəsmi səfəri ölkəmizin müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu əməkdaşlıq kursunun davamı kimi qiymətləndirilə bilər. İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə Azərbaycan-Almaniya münasibətlərində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə əlaqələri rəsmi Bakının üzv dövlətlərlə ikitərəfli münasibətləri dərinləşdirməsi fonunda yeni mərhələyə keçib. Bu dəfə Azərbaycan Prezidenti İlham Əliyev Aİ-nin ən böyük iqtisadi gücü sayılan Almaniyada rəsmi səfərdə olub.

### İKİTƏRƏFLİ TƏRƏFDAŞLIQ ÜÇÜN STRATEJİ GÜNDƏLİYƏ DAİR BİRGƏ BƏYANNAMƏ

Dövlət başçısı səfər çərçivəsində almaniyalı həmkarı Frank-Valter Ştaynmayer ilə görüşüb. Daha sonra Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts ilə bir araya gəlib. Tərəflər ikitərəfli münasibətləri əhatə edən əməkdaşlığa dair kompleks müzakirələr aparıblar. Daha sonra Azərbaycan və Almaniya arasında ikitərəfli əməkdaşlığa dair sənədlər imzalanıb. Prezident İlham Əliyev və Kansler Fridrix Merts "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"ni imzalayıblar. İmzalanan sənədlər arasında Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə də xüsusi qeyd olunmalıdır.

### REGİONAL MÜHARİBƏLƏRİN TƏSİRİ

Səfər çərçivəsində müzakirə edilən məsələlər və gələcək əməkdaşlıqla bağlı planlara dair tərəflər mətbuata birgə bəyanatları zamanı açıqlamalar veriblər. Almaniya üçün Azərbaycanın artan əhəmiyyəti və strateji çəkisi Fridrix Merts tərəfindən bəyan edilib. Hər iki ölkənin yaxın coğrafiyada davam edən münaqişələrdən təsirləndiyi qeyd olunub. "Həmin müharibələr Almaniya və Azərbaycana onların təhlükəsizliyi və iqtisadi maraqları baxımından böyük təsir göstərib. Baxmayaraq ki, hər iki münaqişə təfərrüatlarına görə fərqli ola bilər. Biz istənilən halda danışıqlar yolu ilə həll variantlarını təşviq edirik. Bizi eyni qənaət birləşdirir ki, yekun nəticədə yalnız danışıqlar yolu ilə nizamlama uzunmüddətli sülhü, təhlükəsizliyi və sabitliyi gətirə bilər", - Merts bildirib.

### CƏNUBİ QAFQAZDA SÜLH ÇAĞIRIŞI

Almaniya kansleri bəyan edib ki, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik ölkəsi üçün də zəruridir: "Almaniya və Avropa İttifaqı həmin geosiyasi baxımdan mühüm bölgədə davamlı dinclıyə nail olmaqda çox maraqlıdırlar. Bu səbəbdən, cənab Prezident, biz Sizi Almaniyada salamlamaqdan xüsusi olaraq məmnunuq. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasına nail olmağınız münasibətilə Sizi təbrik edirik. Bu, tarixi razılaşmadır. Onilliklərlə davam etmiş münaqişəni onun sayəsində aradan qaldırmaq fürsəti yaranır. Bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır".

## Azərbaycanın Almaniya üçün artan əhəmiyyəti

Fridrix Merts Azərbaycanın ölkəsi üçün artan əhəmiyyətini şərtləndirən amillərə də toxunub. Bildirib ki, hazırkı böhran şəraitində xam neftin və Cənub Qaz Dəhlizi ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir: "Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik". Onun sözlərinə görə, Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyəti də artır.

### CƏNUBİ QAFQAZDA ALMAN KAPİTALI

Prezident İlham Əliyev səfər çərçivəsində imzalanmış Birgə Bəyannamənin əhəmiyyətinə toxunub. Bildirib ki, Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcək. Onun sözlərinə görə, Almaniya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Fəal iş görən şirkətlərin sayı 200-dən çoxdur: "Əminəm ki, bugünkü səfərdən sonra onların sayı daha da artacaq. Qarşılıqlı sərmayə qoyuluşu məsələləri müzakirə edilir. Alman şirkətlərinin daha geniş çərçivədə Azərbaycanda fəaliyyəti üçün konkret təkliflər irəli sürülmüşdür".



### ENERJİ VƏ BAĞLANTILAR SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Dövlət başçısı enerji və bağlantılar sahəsində əməkdaşlıq perspektivlərindən də danışıb. Bildirib ki, bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlayıb. Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə yaşıl enerjisini də Avropa məkanına çatdırmaq əzmindədir: "Bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığının çox böyük əhəmiyyəti var. Çünki Almaniya şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə edib. Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir. Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır".

## Artan etimadın göstəricisi olan səfər

Qeyd edək ki, Azərbaycan Prezidentinin Aİ-nin lider dövlətlərindən olan Almaniyaya səfəri ölkəmizin müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu əməkdaşlıq kursunun davamı kimi qiymətləndirilə bilər. Bu baxımdan "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" Azərbaycan-Almaniya münasibətlərində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Bəyannamənin açıqlanan mətnindən də göründüyü kimi, sənəd bu zamana qədər iki ölkə arasında ayrı-ayrı sahələr üzrə əməkdaşlıq istiqamətlərini vahid strateji çərçivəyə salmaqla əsas prioritetləri özündə cəmləşdirir. Buraya tərəflər arasında siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, elm, texnologiya, təhsil və humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi daxildir. Qeyd edək ki, Almaniya İtaliyadan sonra Azərbaycanın Qərbi Avropanın böyük dövlətləri ilə strateji çərçivə sənədi imzaladığı ikinci ölkədir. Bu amili nəzərə alsaq, Aİ-nin əsas siyasi və iqtisadi güc mərkəzləri ilə münasibətlərin dərinləşdirilməsinə hesablanan bu addımlar Azərbaycanın artan gücünün və yaratdığı yeni reallıqların qəbul olunması kimi dəyərləndirilə bilər. Dövlət başçısının Almaniya səfəri bu baxımdan tək ikitərəfli münasibətlərin yeni mərhələsinin başlanğıcı kimi yox, həm də Bakı ilə Aİ arasında artan etimadın göstəricisi kimi qəbul edilməlidir.

# MİLLİ MƏTBUATIMIZ 151 YAŞINDA

**Bu dövr ərzində milli mətbuatımız xalqımızın maariflənməsi, milli özünüdərki və dövlətçilik ənənələrinin formalaşmasında müstəsna və əvəzedilməz rol oynayıb. Bu ənənə hazırda da davam etməkdədir.**

F.ABASOĞLU

Əsası dahi mütəfəkkir, dövrünün qabaqcıl ziyalılarından olan Həsən bəy Zərdabi tərəfindən 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoyulmuş Azərbaycanın milli mətbuatı özünün 151 yaşını qeyd etdi. Bu dövr ərzində milli mətbuatımız xalqımızın maariflənməsi, milli özünüdərki və dövlətçilik ənənələrinin formalaşmasında müstəsna və əvəzedilməz rol oynayıb.

### "ƏKİNÇİ"NİN YARATDIĞI ƏNƏNƏ

"Əkinçi"nin yaratdığı ənənə bu gün müstəqil Azərbaycan mediası tərəfindən davam etdirilir. 151 illik böyük zaman kəsiyində milli mətbuatımızın mahiyyət və forması transformasiyaya uğrasa da, əsas məqsəd və amal dəyişməz olaraq qalır. Bu məqsəd Azərbaycanın dövlətçilik maraqlarının qorunması, peşə etikası, xalqın maariflənməsi, qərəzsiz, dolğun və dəqiq informasiya təminatıdır.

Müasir dövrün tələblərinə uyğun özünün rəqəmsal transformasiya dövrünü yaşayan milli mətbuatımız ənənəvi və yeni medianın qarşılıqlı uğurlu fəaliyyəti nəticəsində qlobal məkanda öz sözünü deməkdə davam edir, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynayır. Sosial şəbəkələrin, virtual dünyanın, rəqəmsal mühitin sürətlə inkişaf etdiyi və cəmiyyətdə ictimai fikrin formalaşmasına təsir etdiyi bir məqamda dövlətçilik maraqlarına, jurnalistikanın dəqiqlik, qərəzsizlik və etibarlılıq prinsiplərinə ciddi riayət edən milli mətbuatın dayanıqlı inkişafı ehtiyacdan çox zərurətə çevrilib. Bu prinsiplərin əsas tutulduğu milli və müstəqil medianın inkişafı, davamlılığı ölkəmizin strateji hədəfləri sırasında yer almaqdadır.

### MİLLİ MƏTBUATIN İNKİŞAFINA XÜSUSİ DİQQƏT YETİRİLİR

Azərbaycan dövləti milli mətbuatın inkişafına xüsusi diqqət yetirir, müvafiq proqramlarla media qurumlarının iqtisadi müstəqilliyinin təmini, jurnalistlərin sosial durumlarının yaxşılaşdırılması istiqamətində addımlar atır. Bu addımlar milli dövlətçilik ənənələrini əsas tutan, milli maraqları müdafiə edən, vətənpərvər peşəkar jurnalist və media qurumlarının formalaşdırılması siyasəti ilə paralel olaraq reallaşdırılır.

### QLOBAL MEDİA PROBLEMLƏRİNİN MÜZAKİRƏ OLUNDUĞU MƏKAN

Artıq Azərbaycan tək milli medianın yox, həm də qlobal media mühitinin problemlərinin, bu sahədəki müasir çağırışların müzakirə olunduğu bir məkana çevrilib. Hər il ənənəvi olaraq keçirilən Şuşa Qlobal Media Forumu bunun ən bariz nümunəsidir. Müasir dünyanın bu gün ən çox ehtiyac duyduğu şey, sülh, sabitlik və təhlükəsiz mühitdir. IV Şuşa Qlobal Media Forumunun əsas devizi də məhz bu qlobal çağırışa həsr edilmişdi: "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması". İşğaldan azad edilmiş Şuşada bu mövzunun seçilməsi heç də təsadüfi deyildi. 151 illik bayram ərəfəsində Azərbaycan dövləti qalib medianın müharibə və sülh dövründəki peşəkar fəaliyyətini, bu sahədə həyata keçirilən uğurlu siyasət modelini dünyaya təqdim etdi.

### HƏRTƏRƏFLİ MODERNLƏŞDİRİLƏN MEDİA MÜHİTİ

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin də vurğuladığı kimi, qlobal medianın gələcəyini müzakirə etmək üçün Şuşa Qlobal Media Forumundan daha uyğun məkan tapmaq çətindir: "Şuşa yalnız şəhər deyil, həm də bir rəmzdir. Əsrlər boyu bura ədəbiyyatın, musiqinin, jurnalistikanın və ictimai fikrin çiçəkləndiyi intellektual və mədəni müzakirə məkanlarından biri olub. Hazırda isə bura dialoqun, ideyaların və beynəlxalq əməkdaşlığın yenidən qurulduğu məkana çevrilir. Şuşa Qlobal Media Forumu sadəcə konfrans deyil, jurnalistlərin, siyasətçilərin, akademik və texnologiya liderlərinin medianın ən vacib dəyərlərindən birini, yəni həqiqəti və faktları qoruyub saxlamaq yollarını araşdırmaq üçün platformadır".

H.Hacıyevin sözlərinə görə, son illərdə Azərbaycan media mühitinin hərtərəfli modernləşdirilməsini həyata keçirib. "Bu islahatlar peşəkar jurnalistikanın gücləndirilməsi, institusional potensialın artırılması, daha yüksək etik standartların təşviq edilməsi, media savadlılığının artırılması və bu sahənin sürətli texnoloji dəyişikliklərə uyğunlaşmasına kömək etmək üçün nəzərdə tutulub. Media islahatı yalnız qanunvericilikdən ibarət deyil. Bu, dayanıqlı institutların qurulması, jurnalistlərə investisiya qoyulması və ictimai etimadın gücləndirilməsi deməkdir", - deyə Hikmət Hacıyev bildirib.

### MİLLİ MEDİANIN MÖVCUD ƏSASI

Müasir çağırışlar, hibrid informasiya müharibəsi, təhdidlər fonunda peşəkar, məsuliyyətli və obyektiv jurnalistikanın əhəmiyyəti daha da artır. Dezinformasiyanın, saxta xəbərlərin və informasiya manipulyasiyalarının geniş yayıldığı bir zamanda jurnalistin peşə etikası, dəqiqliyi, məsuliyyəti və vətənpərvər mövqeyi ciddi mahiyyət daşıyır. Müasir media mühitində etik jurnalistika prinsipləri, peşəkar həmrəylik və media subyektləri arasında əməkdaşlığın labüdlüyü bu sahədə uzaqgörən strateji yanaşmanın zəruriliyini bir daha ortaya qoyur. Azərbaycan milli mətbuatının 151 illik inkişaf yolu göstərir ki, zəngin maarifçilik ənənələri ilə müasir jurnalistika prinsiplərinin vəhdəti milli medianın həm ölkə daxilində, həm də beynəlxalq informasiya məkanında üzərinə düşən missiyanı daha səmərəli yerinə yetirməsi üçün mühüm əsasdır. Uğurlu strateji yanaşma ilə peşəkar jurnalistikanın vəhdəti, ənənəvi və müasir trendlərin qarşılıqlı fəaliyyəti Azərbaycanın milli mediasının mövcud əsasını təşkil etməkdədir.

*"Əsası dahi mütəfəkkir, dövrünün qabaqcıl ziyalılarından olan Həsən bəy Zərdabi tərəfindən 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoyulmuş Azərbaycanın milli mətbuatı özünün 151 yaşını qeyd etdi."*





# ŞİMALİ ƏFQANISTANDA GÜC SAVAŞI

"Taliban"ın Əfqanıstanın şimalındakı vilayətlərə nəzarəti sarsılır. Mərkəzi hakimiyyətdə təmsil olunanların qızıl hasilatı və narkotik tranzitinə nəzarəti əllərinə almaq istəkləri müqavimətlə qarşılanıb.



AZƏR NURİYEV

"Taliban" 2021-ci ilin avqustunda Əfqanıstanda hakimiyyəti ələ keçirdikdən sonra ölkənin bütün ərazisi, o cümlədən şimal bölgələri de-fakto nəzarətə alınıb. Əvvəllər şimal vilayətləri "Taliban"ın ən zəif olduğu ərazilər hesab edilirdi və burada əsasən tacik, özbək və türkmənlər yaşayırdılar. Lakin ABŞ və NATO qüvvələrinin ölkədən çıxmasından sonra "Taliban" sürətlə irəlilədi və qısa müddətdə şimaldakı Məzari-Şərif, Qunduz və digər mühüm şəhərləri də ələ keçirə bildi. Son vaxtlara qədər "Taliban" Şimali Əfqanıstanda inzibati idarəetməni və sərhəd keçidlərini tam nəzarətdə saxlayıb.

### QIZIL HASİLATI VƏ NARKOTİK TRANZİTİNƏ NƏZARƏT UĞRUNDA MÜBARİZƏ

Son vaxtlarsa vəziyyət bir qədər dəyişib. Yayılan məlumatlara görə, "Taliban" hərəkatı Əfqanıstanın şimal-şərqində yerləşən Bədəxşan vilayətində ciddi idarəetmə problemləri ilə üzləşib. Yerli səhra komandirləri təkcə Kabul və Qəndəhardan gələn əmrlərə tabe olmaqdan imtina etmir, həm də "Taliban" silahlı dəstələrini tərk-silah edərək "İslam Əmirliyi"nin zəifliyini nümayiş etdirirlər.

Müşahidəçilər hesab edirlər ki, bu hadisələr "Taliban" üçün daha təhlükəli proseslərin başlanğıcı ola bilər.

Bədəxşanda hərbi-siyasi sabitsizliyin güclənməsi 2025-ci ilin ikinci yarısında aydın görünməyə başlayıb. Bu, əsasən "Taliban" daxilində müxtəlif etnik qruplar arasında iqtisadiyyatın ən gəlirli iki sahəsi – qızıl hasilatı və narkotiklərin tranziti üzərində nəzarət uğrunda mübarizə ilə bağlı olub.



## "CİHAD VETERANLARI"NIN DAHA ÇOX VARLANMAQ İSTƏKLƏRİ

2023-2024-cü illərdə Bədəxşanda qızıl hasilatı demək olar ki, tamamilə yerli nüfuzlu şəxslərin, xüsusilə "Taliban" ordusunun Baş Qərargah rəisi Qari Fasihuddin Fitrata yaxın olan simaların nəzarətində idi. Onlara çinli iş adamları da fəal şəkildə yardım göstərirdilər. Həmin şəxslər arasında Çin xüsusi xidmət orqanlarının əməkdaşları da az deyildi. Onlar "qızıl layihələri"ni örtük kimi istifadə edərək, Şimali Əfqanıstanda fəaliyyət göstərən uyğur cihadçı qrupların fəaliyyətini də izləyirdilər. 2024-cü ildən etibarən Kabul və Qəndəhardakı digər "Taliban" rəhbərləri də Bədəxşandakı qızıl hasilatı layihələrinə maraq göstərməyə başlayırlar. "Cihad veteranları"nın daha çox varlanmaq istəkləri bu marağı bir qədər də gücləndirir. Bu istiqamətdə ən fəal fiqurlardan biri "Taliban" lideri Molla Heybətullah Axundzadənin yaxın silahdaşlarından olan Hacı Bəşir Nurzay olur. Nurzay 1994-cü ildə "Taliban"a ilk maliyyə dəstəyini verib, həm də ölkənin narkotik sənayesinin baş koordinatoru kimi tanınır. O, yerli tərəfdarlarının və "Taliban"ın güc strukturlarının köməyi ilə Bədəxşandakı yerli nüfuzlu şəxslərin əlindən qızıl hasilatı biznesinə, həmçinin Tacikistan və Çin istiqamətində narkotik tranzitinə nəzarəti ələ keçirməyə başlayıb.



Əbdül Qayum Malanq

### QARŞIDURMANIN ETNİK TƏRƏFİ DƏ VAR

Təbii ki, Bədəxşanın yerli nüfuzlu şəxsləri bu gəlirli biznesdən sakitcə imtina etmirlər. Həm də münaqişə yalnız iqtisadi maraqlarla məhdudlaşmır. Kabul və Qəndəhardan gələn "Taliban" nümayəndələri özlərini kobud aparır, yerlilərə ikinci dərəcəli insanlar kimi yanaşırlar. Qarşıdurmanın etnik tərəfi də var. Bədəxşanın yerli komandirləri əsasən taciklər, onların biznesini ələ keçirməyə çalışan "Taliban" nümayəndələri isə cənubdakı puştun elitasının dəstəklədiyi puştunlardır.

Bədəxşanda müqavimətin qarşısını almağa çalışan "Taliban" əvvəlcə bəzi yerli liderləri qorxutmağa, sonra isə ələ almağa çalışıb. Məsələn, Bədəxşandan olan tanınmış tacik talibançı İmam Din heç bir problemlə üzləşmədən Bəşir Nurzainin narkotik qaçaqmalçılığı şəbəkəsinə inteqrasiya olunub və "pis polis" kimi fəaliyyət göstərməyə başlayıb.



Cuma Xan Fateh

### İLK ETİRAZI 34 YAŞLI NÜFUZLU KOMANDİR CUMA XAN FATEH EDİR

Gəlmələrə qarşı ilk etirazı Bədəxşandakı Dərvaz rayonuna faktiki nəzarət edən 34 yaşlı nüfuzlu komandir Cuma Xan Fateh edib. Gəlmələr əvvəlcə onu cənubdakı puştun əyalətlərindən birinin vitse-qubernatoru vəzifəsinə keçirərək, zərərsizləşdirməyə çalışırlar. Lakin Cuma Fateh puştunların ona qarşı iki intiharçı hazırladıqlarını öyrəndikdən sonra evə qayıdıb və iyulun əvvəlində mərkəzin əmrlərinə tabe olmaqdan imtina edərək üsyan qaldırıb. "Taliban" üç həftə ərzində onunla danışıqlar aparıb. Paralel olaraq, Helmand və Qəndəhardan 2000 nəfərlik puştun korpusunu bölgəyə köçürüb.

Amma görünən budur ki, "Taliban" liderləri Bədəxşan üsyançısı ilə açıq düşmənçilikdən yayınıblar. Çünki ehtiyat ediblər ki, Cuma Fatehlə açıq müharibə Bədəxşanda "Taliban" rejiminə qarşı kütləvi xalq üsyanına səbəb ola bilər.

Son məlumatlara görə, Cuma Xan Fateh "Taliban"la danışıqlar üçün Kabilə gəlməyə razılaşıb. Müxtəlif mənbələrə görə, onun təhlükəsizliyinə Dərvazda fəxri məhbus kimi qalan bir neçə puştun "Taliban" komandiri (onların arasında "Taliban" xüsusi təyinatlı qüvvələrinin komandiri də var) tərəfindən zəmanət verilir.

### DAHA BİR ÜSYANÇI KEÇMİŞ XÜSUSİ TƏYİNATLI OLUB

Cuma Fatehlə paralel olaraq, 25 yaşlı Bədəxşan komandiri Əbdül Qayum Malanq da 17 iyul gecəsi özünü "Vətən Döyüşçüləri" adlandıran 50 tərəfdarı ilə birlikdə Yaftali-Pain rayonuna nəzarəti ələ keçirib. Əbdül narkotik ticarəti və ya qızıl mədəni ilə əlaqəsi olmayan keçmiş xüsusi təyinatlı əsgərdir. O, bir neçə saat ərzində və faktiki olaraq atəş açmadan "Taliban" administrasiyasının, polisin və rayon təhlükəsizlik təşkilatının binalarını ələ keçirə bilib. Amma rayonu bir neçə saat əldə saxladıqdan sonra könüllü olaraq silahlarını təhvil verib. Müşahidəçilərin fikrincə, Bədəxşandakı hadisələr tezliklə Əfqanıstanın şimalındakı digər bölgələrdə də davam edə bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# REGİONAL HALAL MƏRKƏZ OLMAQ HƏDƏFİ

Ölkəmiz halal məhsulların istehsalı və ixracı üzrə regionun aparıcı mərkəzlərindən birinə çevrilməyi hədəfləyir. Lakin bu istiqamətdə güclü rəqabətə davam gətirmək üçün bir sıra mühüm addımların atılması zərurəti var.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son illər ölkədə qeyri-neft sektorunun inkişafı və aqrar ixracın genişləndirilməsi əsas iqtisadi prioritetlərdən biri kimi müəyyənləşdirilib. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflərdən biri halal məhsulların istehsalı və ixracı üzrə regionun aparıcı mərkəzlərindən birinə çevrilməkdir.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun sözlərinə görə, ölkəmiz halal məhsulların istehsalı, emalı və ixracı sahəsində regionun əsas oyunçularından biri olmağı hədəfləyir. Nazir bildirib ki, formalaşmaqda olan qlobal halal bazarında strateji keçid qapısı rolunu oynamaq üçün əlverişli imkanlar mövcuddur.

Nazir halal sənayesinin inkişafı üçün bir sıra konkret təşəbbüslər də irəli sürüb: "Vahid halal sertifikatlaşdırma və rəqəmsal izlənmə platformasının yaradılması vacibdir. İnvestorların ehtiyacı olan əsas məsələ beynəlxalq səviyyədə tanınan vahid və etibarlı standartdır. Azərbaycan bu istiqamətdə liderlik etməyə hazırdır".

O, həmçinin, yaşıl halal aqroparkların yaradılmasını, İslam maliyyəsi alətlərinə əsaslanan xüsusi maliyyələşdirmə mexanizmlərinin tətbiqini, halal ixracın Orta Dəhlizlə əlaqələndirilməsini və insan kapitalına investisiyaların artırılmasını təklif edib.

Bəs ölkənin halal məhsullar üzrə regional lider olmaq hədəfi nə dərəcədə realdır?

### "HALAL İQTİSADİYYAT SAHƏSİNDƏ MÜHÜM ÜSTÜNLÜKLƏRİMİZ VAR"

İqtisadçı Xalid Kərimli hesab edir ki, Azərbaycanın halal iqtisadiyyat sahəsində mühüm üstünlükləri var: "Burada əsas amillərdən biri ölkənin əlverişli coğrafi mövqeyidir. Azərbaycan Orta Dəhliz üzərində yerləşir və bu da halal standartlarına uyğun istehsal edilmiş məhsulların Mərkəzi Asiya ölkələrinə, eləcə də Avropaya ixracı üçün əlverişli imkanlar yaradır. İkinci mühüm məsələ ölkənin güclü kənd təsərrüfatı potensialına malik olmasıdır. Növbəti vacib amil isə Azərbaycanın İslam ölkələri ilə yaxşı münasibətlərə malik olması, həmçinin İslam təşkilatlarında fəal və nüfuzlu təmsil olunmasıdır. Bu da ölkəyə mövcud əlaqələrdən istifadə edərək həmin bazarlara çıxış imkanlarını genişləndirməyə şərait yaradır".

### "HALAL SERTİFİKATLAŞDIRMA SİSTEMİ ZƏİFDİR"

İqtisadçı halal sektorun inkişafını məhdudlaşdıra biləcək amillərə də diqqət çəkir. Onun sözlərinə görə, halal iqtisadiyyatı qeyri-neft sektorunun bir hissəsi kimi qiymətləndirmək lazımdır. Bu səbəbdən qeyri-neft sektorunda mövcud olan problemlər halal sektorda və halal məhsul istehsalı sahəsində də eyni şəkildə özünü göstərəcək: "Yəni, bizneslərin şikayət etdiyi rəqabət mühitinin zəifliyi, kapitala çıxış imkanlarının məhdudluğu, yaxud müqavilələr sisteminin çevik işləməməsi kimi məqamlar burada da öz rolunu və təsirini göstərə biləcək. Ona görə də halal sektorun inkişafı məsələsinə ümumi iqtisadi islahatlar çərçivəsində yanaşmalıyıq. Bundan əlavə, ölkədə ümumilikdə halal sertifikatlaşdırma sistemi zəifdir. Nəzərə almaq lazımdır ki, kifayət qədər güclü daxili istehsala malik İslam ölkələri var. Yəni, bu istiqamətdə dünya bazarında kifayət qədər güclü rəqiblərimiz var. Biz hazırda bu sahədə fəaliyyəti necə qura biləcəyimizi düşünürüksə, onlar artıq bu istiqamətdə ciddi addımlar atıblar".




## "BU, ÖLKƏ İQTİSADİYYATINA VALYUTA AXININI TƏMİN EDƏ BİLƏR"

İqtisadçı-ekspert Pərviz Heydərov bildirir ki, Azərbaycanın halal məhsulların istehsalı, emalı və ixracı sahəsində regional liderə çevrilmək hədəfi təsadüfi deyil. Onun sözlərinə görə, ölkədə bunun üçün zəruri imkanlar və əlverişli şərait mövcuddur: "Halal istehsal sistemi kənd təsərrüfatının inkişafına əlavə təkan verə bilər. Buna görə də bu sahəyə xüsusi diqqət yetirilməsi böyük əhəmiyyət daşıyır. Hazırda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunun ÜDM-də payı 5,9% təşkil edir. Halbuki ölkədə rəsmi məşğul əhalinin 1,5 milyondan çoxu aqrar sektorda çalışır. Bu göstəricilər aqrar sahədə məhsuldarlığın hələ də arzuolunan səviyyədə olmadığını göstərir. Ümumiyyətlə, hər hansı sahədə yüksək əməktutumluğun mövcudluğu iqtisadi səmərəliliyin aşağı olmasına işarə edir. İşçi qüvvəsinin nisbətən az, məhsuldarlığın isə yüksək olduğu sahələrdə texnologiyalardan, mexanizasiya vasitələrindən və elmi yeniliklərdən daha səmərəli istifadə edilir. Halal məhsulların istehsalı, emalı və ixracı da məhz belə yanaşma tələb edir".



Pərviz Heydərov

Ekspert bildirir ki, halal sənayesinin inkişafı ölkə iqtisadiyyatına Yaxın Şərq ölkələrindən valyuta axını təmin edə bilər: "Ümumiyyətlə, sözügedən sahədə sənayenin tələb olunan səviyyədə formalaşması üçün İslam ölkələrinin bazarlarına asan çıxış əldə olunmalı, rəqabət prinsiplərinə əməl edilməlidir. Hətta hesab edirəm, ortalıqda qabaqcadan hazırlanmış konkret dövlət proqramı sənədi olmalıdır".

## "HƏM DƏ HALAL MALİYYƏ TƏLƏB EDİR"

X.Kərimli hesab edir ki, Azərbaycanın halal iqtisadiyyat sahəsində potensialı olsa da, beynəlxalq rəqabətdə mövqeyini gücləndirmək üçün bir sıra istiqamətlərdə ciddi işlər görülməlidir: "Məsələn, bizim məhsullar Malayziya, İndoneziya, Birləşmiş Ərəb Əmirlikləri və Türkiyə məhsulları ilə müqayisədə "Made in Azerbaijan" brendi baxımından xeyli zəif tanınır. Daha sonra istehsal həcmlərinin məhdudluğu, yəni daxili bazarın miqyasının kiçik olması, eyni zamanda logistik xərclərlə bağlı problemlər ona gətirib çıxarır ki, ixrac yönümlü iqtisadiyyat ciddi çətinliklərlə üzləşir. Amma halal iqtisadiyyatdan danışanda yalnız qidadan və ya ərzaq məhsullarından danışmamalıyıq. Burada halal maliyyə, halal turizm, halal logistika kimi istiqamətlər də var. Xüsusilə İslam maliyyəsi ölkədə inkişaf etdirilməlidir. İslam maliyyəsinin inkişafından danışarkən söhbət İslam prinsiplərinə uyğun fəaliyyət göstərən bankçılıq və maliyyə xidmətləri sektorunun formalaşdırılmasından gedir. Çünki halal məhsulların istehsalı həm də halal maliyyə tələb edir".



Xalid Kərimli

# AVİABİLETLƏR NİYƏ BAHADIR?




**Bakıdan reallaşdırılan uçuşlarda onsuz da baha olan aviabilet qiymətləri son vaxtlar bir az da artıb. Turizmin inkişafına mənfi təsir edən bu durum vətəndaşların da ciddi narazılığına səbəb olur.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda aviabiletlərin baha olması son dövrlərdə həm turizm sektorunda, həm də ümumi iqtisadi mühitdə ciddi narahatlıq doğurur. Son günlər Bakı-Türkiyə istiqamətində aviabiletlərin baha olması ilə bağlı narazılıqlar sosial şəbəkələrə də yol tapır. Xüsusən Bakı-Ankara və Bakı-İstanbul istiqamətində qiymətlərin yüksək olması ilə bağlı paylaşımlar diqqət çəkir. "Ankara-Tbilisi-Bakı marşrutu ilə uçuşlar daha ucuz başa gəlir, lakin bu seçim sərnişinlər üçün əlavə çətinliklər, xüsusilə baqajla bağlı problemlər yaradır", - deyə narazılıqlar qeyd edirlər.

Bugünlərdə məsələ Milli Məclisdə də qaldırılıb. Millət vəkili Göydəniz Qəhrəmanov qeyd edib ki, turizm və aviasiya sahələrinin qarşılıqlı inkişafı ölkənin regionun aparıcı turizm mərkəzlərindən birinə çevrilməsində mühüm amillərdən biridir: "Aviabiletlərin daha əlçatan olması ölkəyə gələn turistlərin sayının artmasına, turizm sənayesində fəaliyyət göstərən digər sahələrin gəlirlərinin yüksəlməsinə, eləcə də yeni iş yerlərinin açılmasına müsbət təsir göstərə bilər".

### POTENSİAL TURİSTLƏRİ İTİRMƏK RİSKİ

"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) İdarə Heyətinin sədri Samir Rzayev bu yaxınlarda mətbuata müsahibəsində aviabiletlərin baha olması ilə bağlı iradlara cavabında bildirmişdi ki, qiymət formalaşması beynəlxalq aviasiya standartlarına uyğun şəkildə həyata keçirilir və AZAL da bu istiqamətdə aparıcı beynəlxalq aviaşirkətlərin tətbiq etdiyi yanaşma və prinsiplərə əsaslanaraq fəaliyyət göstərir.

Turizm mütəxəssisləri isə hesab edirlər ki, aviaqiymətlərin yüksək qalması ölkəyə turist axınına mənfi təsir göstərir və bu sahədə təxirəsalınmaz addımların atılmasını zəruri edir. Yəni aviabiletlərin qiymətlərinin baha olması nəticəsində Azərbaycan potensial turistlərin bir qismini itirmək riski ilə üz-üzə qalır. Bu tendensiya davam edərsə, ölkədə turizm sektorunun inkişafı ciddi çətinliklərlə üzləşə bilər.



Göydəniz Qəhrəmanov

## "DUBAYA BİLETİN QİYMƏTİ 1000 MANATDAN YUXARIDIR"

Turizmçi Lalə Paşayevanın sözlərinə görə, yay mövsümündə biletlər həmişə baha olur, amma bu dəfə səbəb bir qədər fərqlidir: "Dünya üzrə yanacaq qiymətinin qalxması bir çox ölkələrin aviareyslərinə təsir etdi. Bəziləri uçuşları ləğv etdilər və ya təxirə saldılar. Amma qiymət artımı bizdə daha yüksəkdir. Məsələn, əvvəl İstanbula gediş-dönüş biletini 600 AZN-ə ala bilirdiksə, indi bir tərəfə uçuş o qiymətədir. Yəni ikiqat bahalaşma var. Biz bu dərəcədə gözləmirdik. Hesab edirdik ki, bahalaşma təxminən 100-200 manat civarında olar. Bu baxımdan, narazılıqlar çoxdur. Məsələn, hazırda Dubaya biletin qiyməti 1000 manatdan yuxarıdır".

### "AVİABİLETİN BAHA OLMASI TURİZMƏ MƏNFİ TƏSİR EDİR"

Turizmçi aviabiletin baha olmasının gediş-gəliş turizminə ciddi təsir etdiyini deyir: "Yəqin biletlərin bahalığı səbəbindəndir ki, səyahət edənlərin sayı azalıb. Xüsusən ölkəyə gələnlərin sayında azalma var. Turizm şirkətlərinin işi də azalıb və bəziləri ziyanla işləyirlər. Düzdür, aviareyslərdə qiymət siyasəti beynəlxalq siyasətə uyğun aparılır, amma bu, bizdə daha çox şişirdilir. Amma düşünmürəm ki, bizim narazılığımızla bu sahədə nəsə dəyişin". Turizmçi qiymət artımının bizdəki hava limanı vergisinin baha olması ilə əlqələndirilməsinə münasibət bildirdi: "Bizim hava limanı vergiləri digər ölkələrdən bahadır. Bu vergini yeni hava limanı tikiləndə qaldırdılar. O vaxtdan da aşağı salınmadı. Gürcüstanda hava limanı vergiləri bizimki ilə müqayisədə çox aşağıdır. Ona görə orada aviabiletlər daha ucuzdur".



Lalə Paşayeva

### "REGİONLARDAKI HAVA LİMANLARINDAN DA İSTİFADƏ ETMƏK OLAR"

"Hər hansı turist istənilən ölkəyə səfər etmək istəyərkən öncə biletlərin qiyməti ilə maraqlanır"- deyə turizmçi Anar Həsənov bildirir: "Çünki hotel növü onsuz da müxtəlifdir. Turist 1-5 ulduzlu hoteldə və ya qiymətlər münasib olsa, evdə də qala bilər. Amma aviabiletlərlə bağlı belə alternativlər yoxdur. Gürcüstan turizmi necə inkişaf etdi? Avropaya 30-50 dollara biletlər satılırdı. Nəticədə ölkəyə kütləvi turist axını oldu. Avtomatik Gürcüstan turizmində də inkişaf baş verdi. Hotellər inkişaf etdi, yerli əhali hotellərə qida məhsulları satmağa başladı, onlar da qazandı. Bütün bunlar zəncirvari olaraq bir-biri ilə bağlıdır".

Turizmçinin fikrincə, turistlərin gediş-gəlişi üçün regionların hava limanlarından da istifadə etmək olar: "Əgər söhbət Bakı hava limanının baha olmasından gedirsə, qoy Qəbələ, Lənkəran, Gəncə hava limanlarının xidmətlərindən də istifadə olunsun. Bəzən multi-city tarifləri ayrıca alınan uçuşlardan daha sərfəli hesablanır. Aviaşirkətlər biletləri məsafəyə görə deyil, tələbə, rəqabətə və marşrut üzrə gəlir idarəetməsinə görə qiymətləndirirlər. Buna görə bəzən daha uzun marşrut daha ucuz ola bilir. Bu, beynəlxalq təcrübədə var".

### "BU SAHƏDƏ TƏNZİMLƏMƏ MÜTLƏQ OLMALIDIR"

Turizmçi bildirir ki, hazırda bizdə mövcud olan aviabilet qiymətləri ölkəmizə gələn turist sayına kəskin mənfi təsir edir: "Vaxt vardı ki, Hindistandan Bakıya 200-300 dollara biletlər satılırdı. Deyirdik ki, Hindistan bazarını Azərbaycana gətirəcəyik. Son zamanlar bu biletlər 2000-3000 manata satılırdı. Nə dəyişmişdi ki, qiymətlər bu qədər qalxsın? AZAL-ın Gürcüstana gediş bileti 200, geri qayıdış bileti isə 300 AZN-dir. Eyni məsafə və uçuş üzrə qayıdış biletinin 30-50 faiz baha olması nə dərəcədə düzgündür? Gedən adam geri qayıtmalıdır və məcburdur ki, bu qiymətə bilet alsın. Qiymət dəyişməsə, bazarın inkişafından söz gedə bilməz". A.Həsənov Türkiyə şəhərlərinə aviabiletlərin baha olmasına da toxundu: "Bir ay əvvəl İzmirə tədbirə gedəndə ekonom sinif üzrə bileti 1150 manata aldım. Bu, fantastik qiymətdir. Bu sahədə tənzimləmə mütləq olmalıdır".



Anar Həsənov

# İXRACDA "QIZIL" DÖVR

"AzərGold"un ixracı beş ayda 31,4 faiz artaraq 107,6 milyon dollara yüksəlib. Ekspertlər bildirirlər ki, artımda həm qlobal bazarda qızılın bahalaşması, həm də hasilatın genişlənməsi rol oynayıb.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın qeyri-neft ixracında qızılın rolu getdikcə artır. 2026-cı ilin yanvar-may aylarında "AzerGold" QSC-nin ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 31,4 faiz artaraq 107,6 milyon ABŞ dollarına çatıb və şirkət dövlətə məxsus əsas ixracatçılar arasında ikinci yerdə qərarlaşıb. Bu göstərici qeyri-neft ixracında qiymətli metalların payının yüksəldiyini nümayiş etdirsə də, artımın dayanıqlığı ilə bağlı suallar da gündəmə gəlir. Bəs bu dinamika Azərbaycan iqtisadiyyatına, dövlət büdcəsinə və qeyri-neft sektorunun inkişafına necə təsir göstərə bilər?

### ƏSAS SƏBƏB QIZILIN QİYMƏTİNİN ARTMASIDIR

"AzərGold" QSC-dən sorğumuza cavab olaraq bildirildi ki, 2026-cı ilin yanvar, may aylarında 22 785 unsiya qızıl və 37 428 unsiya gümüş ixrac edilib. Bu dövrdə ixracdan əldə olunan gəlir ötən ilin eyni dövrü ilə müqayisədə 31,4% artaraq 183 milyon manata çatıb: "İxrac gəlirlərinin artmasında dünya bazarında qızılın qiymətinin yüksəlməsi mühüm rol oynayıb. "AzerGold" beynəlxalq qiymətli metallar bazarında fəaliyyət göstərdiyi üçün qlobal bazardakı qiymət dəyişiklikləri təbii olaraq şirkətin göstəricilərinə də təsir edir. 2026-cı ilin yanvar, may aylarında "AzerGold" beynəlxalq bazarlarda realizə etdiyi qızılın qiyməti isə təqribən 49% artıb. Bu da ixrac olunan qızılın dəyərinin və müvafiq olaraq ixrac gəlirlərinin artmasına təsir göstərən əsas amillərdən biri olub. "AzerGold" QSC tərəfindən hasil olunan qızılın ixracının əsas istiqaməti İsveçrədir. "AzerGold" QSC tərəfindən cari il üzrə 70 min unsiya qızıl hasilatı və satışı planlaşdırılıb".

### "İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ BAXIMINDAN OLDUQCA MÜSBƏT GÖSTƏRİCİDİR"

İqtisadçı Asif İbrahimli bildirdi ki, "AzərGold" QSC-nin ixrac göstəricilərində qeydə alınan artım dinamikası Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi baxımından olduqca müsbət, eyni zamanda böyük strateji əhəmiyyət kəsb edən göstəricidir: "Mövcud statistik rəqəmlər yalnız müstəqil bir dövlət şirkətinin uğurlu korporativ fəaliyyətini deyil, həm də ölkənin qeyri-xammal ixracı istiqamətində yürütdüyü makroiqtisadi siyasətin effektivliyini nümayiş etdirir. Bu nəticə iki paralel prosesin – həm dünya birjalarında qızılın qiymətinin davamlı olaraq yüksək səviyyədə qalması, həm də ölkə daxilindəki mədənlərdə hasilat, istehsal və ixrac həcmlərinin məqsədyönlü şəkildə artırılması ilə əlaqədardır. Hazırkı qlobal iqtisadi qeyri-müəyyənlik dövründə qızıl ənənəvi olaraq təməl "təhlükəsiz investisiya" aktivi hesab olunduğu üçün beynəlxalq maliyyə bazarlarında ona olan tələbat dayanıqlı şəkildə yüksək olaraq qalır. Tarixən və müasir iqtisadi proseslərdə həmişə belə olub - dövlətlər, aparıcı mərkəzi banklar, institusional investorlar və hətta sıravi fərdlər hər hansı bir dərin qeyri-stabillik, geosiyasi münaqişələr, qlobal inflyasiya təzyiqləri yaxud makroiqtisadi natarazlıqla qarşılaşdıqda, riskləri minimallaşdırmaq məqsədilə əllərindəki aktivləri daha etibarlı vasitələrlə qorumağa çalışırlar. Belə vəziyyətlərdə vəsaitlərin daşınmaz əmlak, beynəlxalq səviyyədə qəbul edilmiş güclü valyutalar və ən başlıcası qiymətli metallar, xüsusilə də fiziki qızıl formasında saxlanmasına üstünlük verilir".



Asif İbrahimli



## ÖLKƏYƏ ƏLAVƏ VALYUTA DAXİL OLUR

A.İbrahimlinin fikrincə, qızıl ixracının artımı ölkəyə əlavə həcmdə valyuta daxilolmalarını təmin edir: "Xarici valyuta kütləsinin ölkəyə axını isə öz növbəsində milli valyutanın məzənnəsinin stabilliyinə əlavə dəstək verir, ölkənin tədiyyə balansının müsbət saldosunu daha da gücləndirir və nəhayət, dövlət büdcəsinin vergi, eləcə də digər ödənişlər hesabına formalaşan gəlirlərinə müsbət təsir göstərir. Bundan başqa, qeyri-neft ixracının ümumi strukturunda qiymətli metalların xüsusi çəkisinin və payının yüksəlməsini ölkə ixracının ənənəvi enerji daşıyıcılarından asılılığının azaldılması və onun şaxələndirilməsi istiqamətində ciddi struktur irəliləyişi kimi qiymətləndirmək mümkündür. Başqa sözlə desək, neft və təbii qaz kimi qızılı da klassik resurs iqtisadiyyatının və xammal bazasının bir tərkib hissəsi adlandırmaq tamamilə əsaslıdır. Məhz buna görə də, dövlətin uzunmüddətli iqtisadi inkişaf perspektivində və strateji hədəflərində əsas diqqət yalnız xammal satışına deyil, dərin emal sənayesinin qurulmasına, mürəkkəb maşınqayırma sahələrinə, yüksək texnologiyaların tətbiqinə və qlobal dəyər zəncirinə qoşularaq yüksək əlavə dəyər yaradan digər hazır məhsulların ixracını inkişaf etdirməyə yönəldilməlidir".

### "MÜSBƏT DİNAMİKANIN QORUNUB SAXLANILMASI REALDIR"

İqtisadçının sözlərinə görə, mövcud qızıl ixracındakı müsbət dinamikanın qorunub saxlanılması olduqca real görünür: "Lakin unutmaq olmaz ki, bu göstəricilər ilk növbədə dünya bazarındakı qızıl qiymətlərinin dəyişkən trendlərindən, eləcə də ölkə daxilindəki mədənlərdə planlaşdırılan hasilat həcmlərindən asılı olaraq qalacaq. Əgər qlobal müstəvidəki iqtisadi qeyri-müəyyənlik və geosiyasi gərginliklər davam edərsə, bu, qızılın qiymətinin yüksək səviyyədə qalmasını təmin edəcək. Bu ssenaridə "AzərGold"un ixrac göstəricilərindəki yüksəlişin ilin sonunadək qorunması şübhəsizdir. Tükənən təbii sərvətlərdən əldə olunan bu böyük maliyyə gəlirlərinin gələcək nəsillər üçün dayanıqlı iqtisadi inkişafa çevrilməsi üçün həlledici addımlar atılmalıdır. Təbiətdən götürülən sərvətin yerini yalnız bilik və texnologiya doldura bilər. Buna görə də, ixracdan əldə olunan əlavə vəsaitlərin davamlı olaraq qeyri-xammal sektoruna, qabaqcıl innovasiyalara, müasir texnologiya ekosistemlərinə və ən əsası, bilik iqtisadiyyatının bünövrəsi olan insan kapitalının inkişafına yönəldilməsi ölkənin gələcəyi üçün effektiv strateji yanaşmadır".

# VALİDEYN RƏQƏMSAL DEYİLSƏ...

Qanunvericilikdə uşaqların sosial şəbəkələrdən istifadəsinə nəzarəti gücləndirməyi nəzərdə tutan dəyişikliklərin uğurlu icrası həm də valideynlərdən asılıdır. Xüsusilə də yaşlı valideynlərin, nənə və babaların rəqəmsal savadlılığının artırılmasına ehtiyac var.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Uşaqların sosial şəbəkələrdən istifadəsinin tənzimlənməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulan yeni dəyişikliklər diqqəti azyaşlıların rəqəmsal təhlükəsizliyinə yönəldir. Nəzərdə tutulanların reallaşması həm də valideynlərin rəqəmsal savadlılığına birbaşa bağlıdır. Bəs rəqəmsal mühitdə uşaqları qorumaq üçün bu prosesin əsas iştirakçısı olan valideynlərin və digər himayədarların rəqəmsal savadlarının artırılması istiqamətində hansı addımlar atılmalıdır?

### "UŞAQLARIN RƏQƏMSAL TƏHLÜKƏSİZLİYİ AİLƏNİN MAARİFLƏNMƏSİ İLƏ TƏMİN OLUNUR"

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) rəhbəri Pərvinə Qədimova hesab edir ki, valideyn nəzarət alətlərini, yaş məhdudiyyətlərini və təhlükəsizlik parametrlərini bilmirsə, bu mexanizmlər praktikada effektiv işləməyəcək: "Məktəblər burada əsas maarifləndirici mərkəz rolunu oynaya bilər. Valideyn iclaslarının bir hissəsi rəqəmsal təhlükəsizlik, valideyn nəzarəti tətbiqləri və sosial şəbəkələrdən təhlükəsiz istifadə mövzularına həsr edilə bilər. Xüsusilə nənə və babaların himayəsində böyüyən uşaqlar nəzərə alınaraq, sadə dildə, praktik nümunələr üzərində qurulan təlimlər təşkil olunmalıdır. Xarici ölkələrdə, xüsusən Skandinaviya ölkələri, Böyük Britaniya və Sinqapurda valideynlər üçün məktəb əsaslı rəqəmsal savadlılıq proqramları uğurla tətbiq olunur. Bu təcrübələr göstərir ki, uşaqların rəqəmsal təhlükəsizliyi həm də ailənin maariflənməsi ilə təmin olunur". AGMA sədri bildirir ki, regionlarda maarifləndirmə fəaliyyətləri davamlı və əlçatan formada genişləndirilməlidir: "Rayonlarda vəziyyət müxtəlifdir. Gənc valideynlər texnologiyadan daha rahat istifadə etsələr də, xüsusən yaşlı valideynlər və nənə-babalar arasında rəqəmsal bacarıqlara ehtiyac hələ də yüksəkdir. Rayonlarda bu işi məktəblərlə yanaşı, regional təhsil idarələri, ictimai birliklər, gənclər təşkilatları, kitabxanalar və icma mərkəzləri həyata keçirə bilər". P.Qədimova bildirir ki, rəhbərlik etdiyi təşkilat bu istiqamətdə bir sıra işlər görür: "Hazırda AGMA-nın həm Bakıda, həm də regionlarda fəaliyyət göstərən koordinatorları tərəfindən "Valideyn məktəbi" layihəsi həyata keçirilir. Sentyabr ayından etibarən proqrama "Rəqəmsal öyrənmə mühiti" mövzusu da əlavə olunacaq".

"Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası" İctimai Birliyinin sədri Elvin Abbasov hesab edir ki, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə dair yeni qaydalar ailə daxilində tamamilə yeni rəqəmsal idarəetmə mexanizminin qurulmasını zəruri edir. Belə ki, bu hüquqi tənzimləmə kontekstində valideynlərin və himayədarların bilməli olduğu minimum rəqəmsal bacarıqlar artıq sadəcə internetdə gəzinmək və ya video izləməklə məhdudlaşmır, kiber-gigiyena minimumunu əhatə edir: "Böyüklər ilk növbədə fərdi identifikasiya və rəqəmsal imza (məsələn, SİMA) vasitəsilə dövlət platformalarında qeydiyyatdan keçməyi və uşağın profillərinə rəsmi əlçatanlıq (dostup) icazəsi verməyi bacarmalıdırlar. Bununla yanaşı, ikiaddımlı doğrulamadan (2FA) istifadə, hesabı mürəkkəb şifrələrlə qorumaq və kibermәkanda uşaqları təhdid edən fişinq (fırıldaqçılıq) linklərini ayırd edə bilmək kimi funksional rəqəmsal savadlılıq vərdişlərinə yiyələnmək mühüm şərtdir".



Pərvinə Qədimova



Babək Rzayev



Elvin Abbasov

### NƏNƏ VƏ BABALARIN RƏQƏMSAL PLATFORMALARA İNTEQRASİYASI

Ekspertin sözlərinə görə, hazırda ölkəmizdə, xüsusilə paytaxt və böyük şəhərlərdə gənc valideynlər arasında "Google Family Link" və ya "Apple Screen Time" kimi valideyn nəzarəti proqramlarından istifadə səviyyəsi son illərdə proqram təminatı imkanlarının artması ilə paralel olaraq yüksəlir: "Lakin ümumi ölkə miqyasında, əsasən də regionlarda bu cür proqramların idarə edilməsi göstəricisi hələ də olduqca aşağı səviyyədədir. Bu mənzərənin yaranmasının əsas səbəbləri əksər nəzarət tətbiqlərində Azərbaycan dili dəstəyinin məhdud olmasıdır. Əhalinin bu növ texnoloji alətlərin mövcudluğu barədə məlumatsızlığı və ailələrdə nəzarəti rəqəmsal filtrlərlə deyil, ənənəvi olaraq "cihazı qadağan etmək" və ya "telefonu əlindən almaq" kimi mexaniki üsullarla həyata keçirmək vərdişidir". Mütəxəssis hesab edir ki, uşaqları himayə edən yaşlı nəslin, xüsusən nənə və babaların rəqəmsal platformalara inteqrasiyası üçün mürəkkəb texnoloji terminlərdən uzaq, tamamilə sadələşdirilmiş və vizual addımlardan ibarət metodologiya seçilməlidir: "Yaşlı himayədarlar üçün yalnız rəngli şəkillərdən və bəsit oxlardan ibarət olan kağız formatlı rəsmi təlimat kitabçalarının (məsələn, "Nəvənizə icazə vermək üçün 3 addım") hazırlanması və onlara birbaşa paylanması çox effektiv praktik addımdır. Bundan əlavə, gənclər təşkilatlarının nümayəndələri "Nəsillərarası rəqəmsal körpü" layihələri çərçivəsində kəndlərdə yaşlı sakinlərin smartfonlarında lazımi proqram təminatını quraşdırıb istifadəsini öyrətməli, eyni zamanda yaşlı təbəqənin ən oyuncaq və sevimli teleradio məkanlarında, xüsusən televiziyada bəsit, animasiyalı maarifləndirici çarxlara geniş yer verilməlidir".

### "VALİDEYNLƏR UŞAQLARIN İNKİŞAF SÜRƏTİNƏ ÇATA BİLMİRLƏR"

Astara şəhər 1 saylı tam orta məktəbin ingilis dili müəllimi Babək Rzayevin sözlərinə görə, şagirdlərin əksəriyyətinin sosial şəbəkələrdən çox istifadə ilə bağlı problemləri var: "Bu problemi təkcə qanun qəbul etməklə, məktəbdə telefonlara qadağa qoymaqla həll etmək olmaz. Valideynlər də maariflənməlidirlər. Təəssüf ki, onların rəqəmsal bilikləri aşağı və bəzən yox səviyyəsindədir. Valideynlər uşaqların bu sahədəki inkişaf sürətinə çata bilmirlər". B.Rzayev də hesab edir ki, valideynlərin maariflənməsi istiqamətində işlər görülməlidir: "Valideynlərə rəqəmsal savadlılığı aşılayan müəyyən sosial çarxlar hazırlana, təhsil müəssisələrində valideynlərlə görüşlər təşkil edilə bilər".

# 5,4 MİLYARD MANAT İPOTEKA KREDİTİ VERİLİB

İpoteka kreditləri alanlarda 18–29 yaş qrupunun payı 33 %, 29–35 yaş qrupunun payı 34 %, 35 yaşdan yuxarı şəxslərin payı isə 33 % təşkil edir. Beləliklə, kreditlərdən yararlananların 67%-i gənclər və gənc ailələrdir.



"Azərbaycanda ipoteka kreditləri üzrə maksimal məbləğin artırılması bazardakı tendensiyalardan asılı olacaq.

"Report" xəbər verir ki, bunu İpoteka və Kredit Zəmanət Fondunun Baş meneceri Rasim Abdullayev bildirib.

"Hazırda ipoteka kreditləri üzrə əsas məqsədimiz orta və aşağı gəlirli ailələrin, vətəndaşlarımızın bu mexanizmə əlçatanlığını təmin etməkdir. Bu səbəbdən Fond ipoteka kreditinin maksimum məbləğini 150 min manat səviyyəsində saxlayır. Bildiyiniz kimi, bankların da daha yüksək məbləğlər üzrə daxili ipoteka proqramları mövcuddur. Lakin Fondun əsas məqsədi cəlb etdiyi resurslar və dövlət büdcəsindən ayrılan vəsait hesabına mümkün qədər çox vətəndaşın mənzil təminatı problemini həll etməkdir. Biz bu istiqamətdə bazardakı tendensiyaları daim izləyir və diqqətdə saxlayırıq", - deyə o qeyd edib.

### "ƏGƏR ZƏRURƏT YARANARSA..."

Fond rəsmisi əlavə edib ki, əgər zərurət yaranarsa, kreditin maksimum məbləğinin artırılması məsələsinə baxıla bilər: "Ancaq nəzərə almaq lazımdır ki, 150 min manat kredit götürülməsi uzunmüddətli perspektivdə kifayət qədər ciddi maliyyə öhdəliyidir. Hazırda proqramdan faydalanan vətəndaşların orta aylıq gəliri 2 100–2 200 manat, ailə üzvlərinin orta sayı isə 3–3,5 nəfərdir. Belə olan halda vətəndaşların faydalana biləcəyi maksimal məbləğ hələlik 150 min manatdır. Gələcəkdə kredit məbləğlərinin artması tendensiyası davam edərsə və orta göstəricilər maksimum həddə yaxınlaşarsa, kredit limitinin artırılması məsələsinə baxılacaq. Digər mühüm amil odur ki, kredit məbləğinin artırılması ilə bağlı hətta açıqlamanın özü belə bazarda ciddi ajiotaj yarada və daşınmaz əmlak qiymətlərinin sürətlə artmasına səbəb ola bilər. Buna görə bu məsələyə çox ehtiyatla yanaşırıq və yalnız real zərurət yarandığı halda müvafiq addımların atılmasını məqsədəuyğun hesab edirik".

### İPOTEKA KREDİTLƏRİNİN 80 %-İ DÖVLƏT XƏTTİ İLƏ VERİLİB

R.Abdullayev qeyd edib ki, bu günə qədər Azərbaycanda 73,4 min nəfərə 5,4 milyard manat ipoteka krediti verilib. Onun sözlərinə görə, bunun təxminən 80 %-i Fondun (dövlət) xətti ilə, 20 %-i isə bankların daxili ipoteka proqramları üzrə verilib. "Mərkəzi Bankın statistikasına əsasən, bankların kredit portfelində ipoteka kreditlərinin xüsusi çəkisi 15,2 %-dir", - deyə Fond rəsmisi əlavə edib.

R.Abdullayev deyib ki, Fondun zəmanət mexanizmi tətbiq edildikdən sonra, 2018-ci ildən etibarən ümumi məbləği 150 milyon manata yaxın olan 1 571 zəmanətli ipoteka krediti verilib.

## İPOTEKA KREDİTLƏRİ ALANLARIN YAŞ KATEQORİYASI

Onun sözlərinə görə, hazırda 1 284 ədəd, 753 milyon manatlıq zəmanətli kredit portfelinə xidmət göstərilir: "Eyni zamanda, portfel zəmanəti mexanizmi çərçivəsində 451 kredit mövcuddur və onların ümumi dəyəri 80 milyon manatdır. Ölkə Prezidentinin 9 iyun 2026-cı il tarixli fərmanına əsasən, ipoteka kreditlərinə zəmanət və faiz subsidiyasının verilməsi mexanizmi İqtisadiyyat Nazirliyinə məxsus "Azərbaycan Biznesinin İnkişafı Fondu" ASC-yə həvalə edilib. Bu addım iqtisadi səmərəliliyin artırılması və dövlət xidmətlərinin optimallaşdırılması məqsədilə atılıb. Yeni kreditlərə zəmanətlərin və faiz subsidiyalarının verilməsinə ancaq səlahiyyət verilmiş yeni qurum həyata keçirir, mövcud portfelə isə xidmət göstərilməsini davam etdiririk".



Rasim Abdullayev

### FONDUN ADI DƏYİŞDİRİLMƏYƏCƏK

Fondun adının dəyişdirilməsinə gəlincə, baş menecer bildirib ki, hazırda bu fəaliyyət davam etdiyi üçün təşkilatın adının dəyişdirilməsi nəzərdə tutulmur. Gələcəkdə bu istiqamətdə hər hansı plan olarsa, ictimaiyyətə mütləq məlumat veriləcək.

R.Abdullayev deyib ki, hazırda ipoteka kreditlərini alanlarda 18-29 yaş qrupunun payı 33 %, 29–35 yaş qrupunun payı 34 %, 35 yaşdan yuxarı şəxslərin payı isə 33 % təşkil edir: "Beləliklə, kreditlərdən yararlananların 67%-i gənclər və gənc ailələrdir. Regionlarda verilmiş ipoteka kreditlərinin payı isə 23 % təşkil edir. Kredit alanların 67 %-i evli, 33 %-i subay şəxslərdir. Məşğulluq baxımından isə kreditlərin 42%-i qeyri-dövlət sektorunda, 58%-i dövlət sektorunda çalışan vətəndaşlara verilib. 2020–2026-cı illər ərzində Fondun təqdim etdiyi alətlər hesabına faydalananların orta illik sayı 7 300-dən çox olub", - deyə o əlavə edib.



# SOCAR-ın hədəfləri barədə məlumat verilib

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "Wood Mackenzie" şirkətinin sədri və baş analitiki Saymon Flauers ilə görüşüb.

"Report" SOCAR-a istinadən xəbər verir ki, görüşdə Azərbaycanın qlobal enerji bazarlarında etibarlı tərəfdaş kimi mövqeyinin daha da möhkəmləndiyi məmnunluqla qeyd olunub.

Qonaqlara SOCAR-ın strateji hədəfləri, beynəlxalq enerji şirkətinə transformasiyası istiqamətində görülən işlər, enerji sektorunun müxtəlif istiqamətləri üzrə fəaliyyəti, Azərbaycanda və digər ölkələrdə həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verilib.

Söhbət zamanı SOCAR ilə "Wood Mackenzie" arasında formalaşmış uğurlu əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Tərəflər qlobal enerji bazarlarındakı meyilləri nəzərdən keçirib, neft-qaz emalı, bərpaolunan enerji, dekarbonizasiya, eləcə də rəqəmsallaşma və analitik həllərin enerji sektorunda tətbiqi və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 942
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# İDXALI AZALDAN YERLİ İSTEHSALDIRMI?

Azərbaycanın ümumi idxalı ilin ilk yarısında 27,6% azalsa da, maşın və avadanlıq, eləcə də ərzaq məhsullarının idxalı artıb. Ekspertlər hesab edirlər ki, bu göstərici idxal strukturunda baş verən dəyişiklikləri əks etdirir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




2026-cı ilin ilk yarısında Azərbaycanın idxalı kəskin azalıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, yanvar-iyun aylarında ölkəyə idxal olunan malların ümumi statistik dəyəri 8,34 milyard ABŞ dolları təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,18 milyard dollar və ya 27,6% azdır. Maraqlıdır ki, ümumi idxalın azalmasına baxmayaraq, maşın və avadanlıq idxalı 18,8%, ərzaq məhsullarının idxalı isə 6,9% artıb. Digər tərəfdən, ümumi geriləmənin əsas hissəsi "digər mallar" kateqoriyasında qeydə alınan 62 faizlik azalma ilə bağlıdır. Bəs bu göstəricilər iqtisadiyyat üçün hansı mesajı verir? İdxaldakı azalma daxili istehsalın güclənməsinin göstəricisi, yoxsa investisiya və tələbatın zəifləməsinin nəticəsidir?

## Əsas geriləmə "digər mallar" kateqoriyasındadır

### "İDXALIN AZALMASI İQTİSADİ ZƏİFLƏMƏ DEMƏK DEYİL"

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, idxalın azalması ölkə iqtisadiyyatı üçün ilk baxışdan müsbət görünsə də, bu tendensiyanın real iqtisadi əhəmiyyətini anlamaq üçün ümumi rəqəmləri deyil, konkret mal qruplarının statistikasını təhlil etmək lazımdır: "İdxaldakı kəskin geriləmənin arxasında sənaye avadanlıqlarının və ya iş yerləri üçün lazımi istehsal vasitələrinin çatışmazlığının dayandığı ehtimal edilə bilər. Lakin real statistika bunun tam əksini göstərir. Ölkəyə maşın, avadanlıq və mexanizmlərin idxalı 18,8% artaraq 2 milyard dolları keçib və ümumi idxaldakı payı 24,1%-ə yüksəlib. Vergi ödəyicilərinin sayındakı artım fonunda istehsal vasitələrinin idxalının genişlənməsi onu göstərir ki, ümumi azalma iş yerlərinin bağlanması və ya sənayenin zəifləməsi ilə bağlı deyil. Əksinə, daxili bazarda iqtisadi aktivlik davam edir. Məsələn, geyim (4,4% azalma) və mebel (19,7% azalma) idxalındakı geriləmə daxili bazarda yerli istehsalın və sahibkarlığın inkişafının müsbət nəticəsi kimi qiymətləndirilə bilər. Lakin digər tərəfdən, ərzaq məhsullarının idxalının 6,9% artaraq 1,4 milyard dollara yaxınlaşması (xüsusən ət və süd məhsullarının fiziki həcmindəki ciddi artımlar) baza istehlak mallarında xarici bazardan asılılığın hələ də yüksək qaldığını göstərir".

G.Hüseynova bildirdi ki, xarici valyutanın ölkədən çıxışının 3 milyard dollardan çox azalması milli valyutanın dayanıqlığı və tədiyyə balansı baxımından müsbət haldır: "İdxal olunan məhsulların strukturuna baxdıqda görürük ki, qara metallar, plastmas və ağac məmulatları kimi xammal yönümlü məhsulların idxal dəyəri artıb. Xammal və sənaye avadanlıqlarının ölkəyə gətirilməsinin artması gələcəkdə hazır məhsul istehsalı və ixrac potensialı yaradacağı üçün iqtisadi cəhətdən olduqca əhəmiyyətlidir. Təhlilin ən mühüm nəticəsi ondan ibarətdir ki, ümumi idxaldakı bu böyük azalma heç də kütləvi şəkildə yerli istehsalın sıçrayışı ilə bağlı deyil. İdxaldakı 3,2 milyard dollarlıq geriləmə mütləq şəkildə "digər mallar" kateqoriyasında baş verən 3,5 milyard dollarlıq (62%) kəskin çöküşlə əlaqədardır. Bu tendensiyanın davamlı olacağı təqdirdə iqtisadiyyat üçün risklər və imkanlar bütövlükdə həmin qrupun strukturundan asılıdır. İstehlak yönümlü geyimdə azalma, sənaye avadanlıqlarında isə artım bazarı sağlamlaşdırsa da, 27,6%-lik ümumi azalmanın əsl təbiətini anlamaq üçün "digər mallar" kateqoriyasının detalları, istifadə şəraiti və bu əməliyyatların birdəfəlik, yoxsa uzunmüddətli xarakter daşıdığı mütləq araşdırılmalıdır".


Günay Hüseynova


Cəfər İbrahimli

### "İDXAL GERİLƏYİR, AMMA TEXNOLOJİ AVADANLIQ AXINI DAVAM EDİR"

İqtisadçı Cəfər İbrahimlinin sözlərinə görə, cari ilin ilk yarısında ümumi idxalın 27,6% azalması, ixracın isə artması xarici ticarətdə müsbət saldonun artmasına səbəb olub: "Böyük ehtimalla, investisiya məqsədilə saxlanılan qızılın bir hissəsi qiymətlərin yüksək olduğu dövrdə satılaraq ixrac edilib və bu da xarici ticarət saldosuna öz ciddi müsbət təsirini göstərib. İdxalın kəskin azalmasının əsas səbəbinə gəldikdə, ilkin ehtimallar bunu işğaldan azad edilmiş ərazilərdəki genişmiqyaslı bərpa-quruculuq işlərinin və infrastruktur layihələrinin mühüm bir hissəsinin yekunlaşması ilə əlaqələndirilir. Gözlənilirdi ki, əvvəlki illərdən fərqli olaraq, əsaslı investisiya yönümlü texnologiya və avadanlıq idxalı azalacaq. Lakin rəsmi gömrük statistikası fərqli mənzərə ortaya qoyur. Ölkəyə maşın, avadanlıq və mexanizmlərin idxalı azalmayıb, əksinə, 18,8% artaraq 2 milyard dolları ötüb. Bu isə onu göstərir ki, ölkədə infrastruktur, sənaye və əsaslı investisiyalar üçün texnoloji təchizat hələ də yüksək sürətlə davam edir".

### "YERLİ İSTEHSAL ARTSA DA, ƏRZAQ İDXALINDAN ASILILIQ QALIR"

C.İbrahimli bildirdi ki, bu tendensiyanın ölkə iqtisadiyyatı üçün əhəmiyyətinə gəldikdə, azalmanın arxasında yatan real amillər önəmlidir. Şübhəsiz ki, ölkədə daxili istehsalın artımı tendensiyası mövcuddur: "Məsələn, mebel (19,7%) və geyim (4,4%) idxalındakı geriləmə məhz yerli istehsalın daxili bazarı əvəzləməsi ilə izah oluna bilər. Bu, iqtisadi inkişaf və böyümə imkanları baxımından olduqca müsbət haldır. Lakin ərzaq idxalının (xüsusən ət və süd məhsulları) 6,9% artması göstərir ki, daxili istehsaldakı sıçrayış bütün sektorları, xüsusilə də baza istehlak mallarını hələ ki tam əhatə etmir. Statistika təsdiq edir ki, hazırkı vəziyyətdə idxaldakı bu ciddi azalmanın əsas səbəbi investisiya layihələrinin bitməsi deyil. Geriləmənin demək olar ki, tamamı birbaşa "digər mallar" kateqoriyasında baş verən 62%-lik (təxminən 3,5 milyard dollar) kəskin düşüşlə bağlıdır. Yəni, iqtisadi mənzərəni doğru qiymətləndirmək üçün xüsusi olaraq bu spesifik kateqoriyadakı azalmanın təsnifatı araşdırılmalıdır".

# MƏKTƏBLİLƏR YAY TƏTİLİNİ NECƏ KEÇİRİRLƏR?

Əvvəllər uşaqlar üçün mövcud olan yay düşərgələri, məktəbdənkənar məşğələlər və yay mütaliəsi kimi ənənələr hazırda yoxdur. Nəticədə uşaqlar yayda nəzarətsiz boş vaxt keçirir, valideynlər isə onların həm istirahətini, həm də inkişafını təmin etmək üçün alternativ imkanlar axtarırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Yay tətili dövründə şagirdlərin asudə vaxtlarının səmərəli təşkili məsələsi hələ də açıq qalır. Əvvəllər mövcud olan yay düşərgələri, məktəbdənkənar məşğələlər və yay mütaliəsi kimi ənənələr bu gün geniş şəkildə tətbiq olunmur. Nəticədə bir çox uşaq aylarla nəzarətsiz boş vaxt keçirir, valideynlər isə onların həm istirahətini, həm də inkişafını təmin etmək üçün alternativ imkanlar axtarırlar.

**PLANLI VƏ BALANSLI DÖVR**

İki ildir Çində müəllim kimi çalışan Rüfət Əsədzadə yaşadığı ölkənin təcrübəsindən danışır: "Çində yay tətili təxminən iki ay davam edir. Məktəblər bağlanır, amma bu, uşaqların tamamilə sərbəst olması demək deyil. Xüsusilə şəhərlərdə valideynlər işlədikləri üçün uşaqların gününü əvvəlcədən planlaşdırırlar. Yay aylarında uşaqların çoxunu məktəbdə deyil, müxtəlif özəl kurslarda və məşğələlərdə görmək olur. Üzgüçülük, basketbol, badminton, piano, rəsm, robototexnika və ingilis dili ən çox seçilən fəaliyyətlərdəndir. Dövlət bütün uşaqlar üçün yay düşərgələri təşkil etmir. Bələdiyyələrin, kitabxanaların və ictimai mərkəzlərin müəyyən pulsuz tədbirləri olsa da, uşaqların böyük əksəriyyəti valideynlərin seçdiyi ödənişli proqramlara qatılır. Bu da uşağın inkişafına edilən investisiyanın bir hissəsi kimi qəbul olunur". R.Əsədzadə Çində müşahidə etdiyi başqa bir maraqlı məqamı da qeyd edir: "Azərbaycandakı kimi məhəllələrdə səhərdən axşama qədər küçədə oynayan uşaq mənzərəsi burada demək olar ki, yoxdur. Bunun səbəbi uşaqların evdə olması deyil, sadəcə onların günləri planlı keçir: kurs, idman, ailə ilə gəzinti və ya evdə müxtəlif fəaliyyətlərlə məşğul olurlar. Çində yay tətili nə tam istirahətdən, nə də yalnız dərs oxumaqdan ibarətdir. Bu, daha çox planlı və balanslı keçirilən bir dövrdür".

**"TƏHSİLLƏ YANAŞI, KEYFİYYƏTLİ VƏ SƏMƏRƏLİ İSTİRAHƏT DƏ VACİBDİR"**

Bəs bizim ölkəmizdə uşaqlar üçün yay tətilinin təşkili necə qurulub?

Bakı şəhəri 263 nömrəli tam orta ümumtəhsil məktəbin ibtidai sinif müəllimi Ayşən Bəxtiyarova bildirir ki, ölkəmizdə bu istiqamətdə ayrı-ayrı məktəblər, təşkilatlar, ictimai birliklər və s. səviyyəsində müxtəlif tədbirlər həyata keçirilir: "Hazırda əsas məsələ bu işi kütləvi hala gətirməkdir. Hesab edirəm ki, məktəb müddəti şagirdlərin təhsil alması üçün kifayətdir. Məktəblilərin təhsillə yanaşı, keyfiyyətli və səmərəli istirahət etmələri də vacibdir. Bu istirahət isə təhsillə balanslaşdırılmış formada daha effektli ola bilər. Bunun üçün ən yaxşı variant isə bütün şagirdlər uçun əlçatan olan yay düşərgələrinin təşkil edilməsidir. Bu düşərgələrdə məktəblilər sosial, fiziki, intellektual və digər istiqamətlərdə daha yaxşı inkişaf edə bilərlər".



## "UŞAQLAR VAXTLARINI TELEFONDA OYUN OYNAMAQLA KEÇİRİRLƏR"

Şəmkir rayonu Düyərli kənd 2 nömrəli tam orta məktəbin müəllimi Validə Məmmədli hazırda uşaqların yay tətilləri günləri ilə bağlı böyük boşluqların olduğunu qeyd edir: "Kimlərsə yay tətilində özəl düşərgələr təşkil etməyə çalışırlar. Valideynlər bunu çox istəyir, amma təhlükəsizliyin təmin olunması baxımından narahat olurlar. Əgər valideyn bilsə ki, bu, dövlət tərəfindən və ya xüsusi vətəndaş cəmiyyəti tərəfindən təşkil olunur, onda övladlarını daha ürəkdən göndərərlər. Ancaq şəxsi təşəbbüslərə çox da etibar etmirlər". V.Məmmədli hesab edir ki, uşaqların tətili dövründə məktəblərdə müxtəlif fəaliyyət proqramları təşkil olunmalıdır: "Resurs baxımından regional, məktəb, sektor və ya nazirlik tərəfindən dəstək olsa, belə fəaliyyətləri təşkil etmək olar. Bu, bacarığa yönəlmiş öyrənmə olar". V.Məmmədli hazırda yaşadığı kənddə uşaqların yay tətili ilə bağlı mənzərəni belə təsvir edir: "Hazırda uşaqlar evdə oturur. Kimin imkanı varsa, uşağını özü ilə istirahətə aparır. Maddi imkanı olmayan ailələrin uşaqları isə vaxtlarını telefonda oyun oynamaqla keçirirlər. Valideynin təzyiqi varsa, hansısa uşaq oturub bir kitabı vərəqləyir".



Validə Məmmədli



Lətafət Novruzova

## "YAY TƏTİLİ YALNIZ İSTİRAHƏTLƏ MƏHDUDLAŞMAMALIDIR"

Bakı şəhər 10 nömrəli internat tipli sanator ümumtəhsil məktəbinin psixoloqu Lətafət Novruzovanın fikrincə, uşaqların yay tətili yalnız istirahətlə məhdudlaşmamalıdır:

"Bu aylar uşaqların sosial, emosional, fiziki və intellektual inkişafı üçün mühüm imkanlar yaradır. Son illər diqqət çəkən məqamlardan biri odur ki, məktəblərdə yay tətilinin məzmunlu təşkili istiqamətində sistemli fəaliyyətlər kifayət qədər geniş deyil. Əvvəllər şagirdlərə yay oxusu üçün kitab siyahıları təqdim olunur, müxtəlif oxu gündəlikləri hazırlanırdı. Uşaq düşərgələri və sinifdənkənar fəaliyyətlər də daha geniş yayılmışdı. Bu gün isə bir çox uşaq yay aylarını əsasən telefon, planşet və kompüter qarşısında keçirir. Nəticədə fiziki aktivlik azalır, sosial münasibətlər zəifləyir, öyrənmə motivasiyasında geriləmə müşahidə oluna bilir". Psixoloqun fikrincə, yay ayları formal təhsildən qeyri-formal öyrənməyə keçid üçün əlverişli zamandır: "Bu dövrdə uşaqlar yeni bacarıqlar qazana, maraqlarını kəşf edə, yaradıcı fəaliyyətlərdə iştirak edə, məktəblər isə könüllülük prinsipi əsasında müxtəlif inkişaf proqramları həyata keçirə bilərlər". L.Novruzovanın sözlərinə görə, yay düşərgələrinə ehtiyac da artır: "Bir vaxtlar yay düşərgələri uşaqların həyatında xüsusi yer tuturdu. Onlar burada dostluq edir, kollektivdə yaşamağı öyrənir, idmanla məşğul olur, müxtəlif yaradıcılıq fəaliyyətlərinə qoşulurdular. Bu gün isə belə imkanlardan istifadə edən uşaqların sayı məhduddur. Dövlət, yerli icra strukturları, bələdiyyələr, məktəblər, universitetlər, qeyri-hökumət təşkilatları və özəl sektorun əməkdaşlığı ilə əlçatan yay düşərgələri yaratmaq mümkündür. Xüsusilə aztəminatlı ailələrin uşaqları, kənd məktəblərinin şagirdləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün sosial yönümlü proqramların təşkili böyük əhəmiyyət daşıyar".



Ayşən Bəxtiyarova

# "YAYIN KABUSU"NA QARŞI ƏN TƏSİRLİ ÜSUL

Ağcaqanadlara qarşı mübarizədə kimyəvi preparatlardan normadan artıq və ya düzgün olmayan şəkildə istifadə insan sağlamlığına, ətraf mühitə mənfi təsir göstərə bilər. Xüsusilə qapalı məkanlarda istifadə edilən bəzi vasitələr uşaqlar, yaşlılar və allergiyası olan şəxslər üçün əlavə risk yaradır.




SEVİNC ABBASOVA

Yay mövsümünün gəlişi ilə insanların üzləşdiyi ən ciddi narahatlıqlardan biri də ağcaqanadların çoxalmasıdır. Xüsusilə axşam saatlarında park və həyətlərdə, kənd yerlərində, eləcə də su hövzələrinin yaxınlığında bu problem daha qabarıq hiss olunur. Ağcaqanadların sancması təkcə narahatlıq yaratmır, həm də bəzi hallarda müxtəlif xəstəliklərin yayılması riskini artırır. Buna görə də hər il minlərlə insan onlardan qorunmaq üçün müxtəlif üsullara əl atır.

Kənd yerlərində ənənəvi olaraq təzək və ya müxtəlif bitki qalıqları yandırılaraq tüstü vasitəsilə ağcaqanadların uzaqlaşdırılmasına çalışılır. Şəhərlərdə isə daha çox aerozol, spiral, elektrik fumiqatorları və digər kimyəvi vasitələrdən istifadə edilir. Lakin istifadə olunan bütün üsullar eyni dərəcədə təhlükəsiz hesab edilmir. Mütəxəssislər bildirirlər ki, kimyəvi preparatlardan normadan artıq və ya düzgün olmayan şəkildə istifadə insan sağlamlığına və ətraf mühitə mənfi təsir göstərə bilər. Xüsusilə qapalı məkanlarda istifadə edilən bəzi vasitələr uşaqlar, yaşlılar və allergiyası olan şəxslər üçün əlavə risk yarada bilər.

Digər tərəfdən, təzək tüstüsü kimi ənənəvi üsullar da birmənalı qarşılanmır. Bu üsul müəyyən müddət ərzində ağcaqanadları uzaqlaşdırsa da, yaranan tüstü havanın keyfiyyətini pisləşdirir, tənəffüs yollarına mənfi təsir göstərir və ekoloji baxımdan da arzuolunan hesab edilmir.

Bəs, bütün bu üsullar arasında ən təhlükəsiz və səmərəli variant hansıdır?

### "ÇOXALMA OCAQLARI ARADAN QALDIRILMALIDIR"

Həkim-epidemioloq Elmira Əkbərova bildirir ki, ağcaqanadlar əsasən durğun su hövzələrində, rütubətli ərazilərdə və su saxlanılan yerlərdə yumurta qoyaraq sürətlə çoxalırlar. Onun sözlərinə görə, bu səbəbdən ilk növbədə onların çoxalma ocaqlarının aradan qaldırılması vacibdir.

E.Əkbərova qeyd edib ki, ağcaqanadlar malyariya da daxil olmaqla bir sıra xəstəliklərin daşıyıcısı hesab olunur. Buna görə də onlara qarşı mübarizə yalnız kimyəvi vasitələrin tətbiqi ilə məhdudlaşmamalı, profilaktik tədbirlərlə də müşayiət edilməlidir. Onun sözlərinə görə, pəncərələrə tor çəkilməsi, qoruyucu vasitələrdən istifadə və ağcaqanadların çoxalması üçün əlverişli şəraitin aradan qaldırılması ən effektiv profilaktik tədbirlər sırasındadır.

## Kimyəvi preparatlardan istifadə zamanı ehtiyatlı olmaq lazımdır

Mütəxəssis deyir ki, elektriklə işləyən və ya digər insektisid tərkibli preparatlar müəyyən hallarda effektiv nəticə versə də, onlardan istifadə zamanı təhlükəsizlik qaydalarına ciddi əməl edilməlidir. "Belə preparatlardan istifadə olunan otaqlarda uzun müddət qalmaq məsləhət görülmür. Xüsusilə hamilə qadınlar, azyaşlı uşaqlar, yaşlı insanlar və xroniki xəstəlikləri olan şəxslər bu baxımdan daha həssas qrup hesab olunur. Uşaq bağçalarında isə bu cür preparatlardan yalnız uşaqların bir neçə gün həmin məkanda olmayacağı hallarda istifadə edilməlidir", - deyə o vurğulayır.

### DEZİNSEKSİYA KOMPLEKS ŞƏKİLDƏ APARILMALIDIR

E. Əkbərovanın sözlərinə görə, dezinseksiya işlərinin effektivliyi təkcə preparatın keyfiyyətindən deyil, həm də təlimata düzgün əməl olunmasından asılıdır. O bildirib ki, preparat tətbiq edildikdən sonra ən azı iki gün ərzində emal olunan əraziyə su vurulmamalıdır. Əks halda preparatın təsiri azalır və ağcaqanad sürfələrinin inkişafı üçün yenidən əlverişli şərait yaranır. "Bəzən vətəndaşlar müraciət edirlər ki, həyət dərmanlanıb, amma səhəri gün vəziyyət dəyişməyib. Araşdıranda məlum olur ki, dərmanlama başa çatdıqdan qısa müddət sonra həyət sulanıb, ağaclara su verilib və ya ərazi yuyulub. Belə olduqda preparat öz təsirini göstərə bilmir", - deyə mütəxəssis bildirir.


Elmira Əkbərova
Nəsib Namazov

Mütəxəssis əlavə edib ki, kompleks şəkildə aparılan və müəyyən intervallarla üç dəfə təkrarlanan dezinseksiya tədbirləri daha yüksək nəticə verir. Bu xidmətin qiyməti ərazinin ölçüsündən asılı olaraq dəyişsə də, orta hesabla bir sot sahənin dərmanlanması təxminən 90 manata başa gəlir.

### "SADƏ SÜNGƏR ÜSULU" NECƏ İŞLƏYİR?

Səhiyyə Nazirliyi Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun dosenti Nəsib Namazov deyir ki, ağcaqanadlarla mübarizədə profilaktik tədbirlərin mütəmadi həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bu tədbirlər kənd və qəsəbələrdə, eləcə də şəhər ərazilərində yerli şərait nəzərə alınmaqla aparılır. Şəhər şəraitində tətbiq olunan üsullar kənd yerlərində istifadə edilən metodlardan müəyyən dərəcədə fərqlənir. Bunun əsas səbəbi şəhərlərdə ağcaqanadların zirzəmilər, binaətrafı sahələr və digər rütubətli məkanlar kimi uyğun mühitlərdə yaşaya bilməsidir. Bu baxımdan, şəhərlərdə kimyəvi mübarizə üsullarından zərurət yarandıqda istifadə olunur.

N.Namazov bildirir ki, uzun illər apardığı tədqiqatlar nəticəsində qansoran ağcaqanadlara qarşı "Sadə süngər üsulu" adlandırdığı tətbiq metodunu hazırlayıb. Onun sözlərinə görə, bu üsul insektisidlərin xüsusi püskürdücü avadanlıqlardan istifadə edilmədən tətbiq edilməsinə və təsir müddətinin uzadılmasına imkan verə bilər.

N.Namazovun sözlərinə görə, bu metod zamanı preparat norma əsasında xüsusi həlledicidə həll olunur, daha sonra süngərə hopdurularaq polietilen torbaya yerləşdirilir. Torbanın üzərində kiçik diametrli dəliklər açıldıqdan sonra o, tavandan və ya digər uyğun yerdən asılır və təxminən 60-80 kvadratmetrlik sahədə təsir göstərə bilir. Asılmasının mümkün olmadığı məkanlarda isə qarışım uyğun qablarda yerləşdirilərək istifadə oluna bilər.

### 50-60 GÜN TƏSİR GÖSTƏRƏ BİLƏN METOD

N.Namazov bildirir ki, hazırladığı metodun əsas üstünlüklərindən biri preparatın daha qənaətlə istifadə olunması və təsir müddətinin uzun olmasıdır. Onun sözlərinə görə, bir dəfə tətbiq edilən süngər uyğun şəraitdə təxminən 50-60 gün effektivliyini saxlaya bilir. Bundan əlavə, süngər sudan çıxarılıb yuyulduqdan sonra yenidən preparat hopdurularaq təkrar istifadə oluna bilir ki, bu da həm iqtisadi, həm də praktik baxımdan üstünlük yaradır.

# PİRALLAHI: BAKININ KƏŞF EDİLMƏMİŞ TURİZM ÜNVANI

Pirallahı ilk baxışdan sakitliyi və təbii gözəlliyi ilə diqqət çəkir. Təmiz küçələr, sovet dövründən qalan səliqəli yaşayış binaları, yol kənarındakı hasarlar üzərindəki rəsmlər nostalji hislər yaradır. Dəniz sahilinə yaxınlaşdıqca adanın turizm üçün nə qədər əlverişli imkanlara malik olduğu hiss edilir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Dünyanın bir çox şəhərlərində dəniz və ya göllərdəki adalara gəmi, yaxud qayıq turları turistlər üçün ən populyar marşrutlardan sayılır. İstanbulda Şahzadə adaları, Torontoda Toronto adaları həm yerli sakinlərin, həm də xarici qonaqların ən çox üz tutduğu məkanlardandır.

Xəzər dənizinin sahilində yerləşən Bakı yaxınlığında adalar olsa da, onlar turizm marşrutlarına daxil edilmir və əlçatan deyil. Xəzərin ən böyük adası olan Pirallahıya səfərim zamanı "Bakı ətrafındakı adalar niyə turizm marşrutuna çevrilmir?" sualına cavab axtarmağa çalışdım.

### İLK BAXIŞDAN SAKİTLİYİ VƏ TƏBİİ GÖZƏLLİYİ İLƏ DİQQƏT ÇƏKİR

Pirallahı rayonu ilk baxışdan sakitliyi və təbii gözəlliyi ilə diqqət çəkir. Təmiz küçələr, sovet dövründən qalan səliqəli yaşayış binaları, yol kənarındakı hasarlar üzərində adanın tanıtımını əks etdirən rəsmlər adamda bir az nostalji hislər də yaradır. Dəniz sahilinə yaxınlaşdıqca rayonun turizm üçün nə qədər əlverişli imkanlara malik olduğu hiss edilir.

Pirallahı vaxtilə "Artyom adası" kimi tanınıb. Sonradan adanın tarixi adı özünə qaytarılıb. Mənbələrə görə, ada qədim ziyarət yeri olub. Bura Nobel qardaşlarının ilk dəniz quyusundan neft çıxardıqları vaxtlardan məşhurlaşıb. Bu gün də ada ölkəmizin neft tarixində xüsusi yer tutur. Adanın zəngin təbii sərvəti, insan yaşayışı üçün lazımi iqlim şəraiti imkan verib ki, ərazidə yeni obyektlərin tikintisi aparılsın, yeni qəsəbə salınsın. Vaxtilə ölkənin neft sənayesinin inkişafında mühüm rol oynamış ərazi bu gün də həmin dövrün izlərini qoruyub saxlayır. Hazırda da dənizdə gecə-gündüz çalışan buruqlar fəaliyyətdədir.

Əvvəllər materikdən ayrı olan rayonu Abşeron yarımadası ilə birləşdirən yol və "Damba" adlanan körpü-bənd indi adaya gediş-gəlişi asanlaşdırmağa xidmət edir.

Hazırda adada 20 min əhali yaşayır. Ada sakinləri arasında ruslar da var. Onlar yerli əhaliyə qaynayıb-qarışıblar. Sakinlər deyirlər ki, burada hamı bir-birinə doğmalaşıb, tanıdı-tanımadı bir-biriləri ilə salamlaşır, xeyir-şərdə yaxından iştirak edir, bir-birilərini tək qoymurlar.

### POTENSİALLA İMKAN ARASINDAKI FƏRQ

Pirallahının sahil xətti turizm üçün böyük potensiala malikdir. Dəniz mənzərəsi, sakit mühit və Bakıdan yaxın məsafədə yerləşməsi onu istirahət məkanı kimi cəlbedici edir. Ada təbiət baxımından da maraqlıdır. Xəzərin sahil ekosistemi, qumlu sahələr və dəniz mənzərələri ekoturizm üçün imkan yaradır. Əsas problem bu potensialla təbliğat arasındakı fərqdir. Adada turizm üçün dəniz, tarix və coğrafi üstünlüklər olsa da, hotel, keyfiyyətli iaşə obyektləri, əyləncə məkanları və güclü tanıtım imkanları hələ kifayət qədər inkişaf etməyib.

Adanın tarixi neft obyektləri və sənaye irsi xüsusi turizm marşrutlarının yaradılması üçün maraqlı imkanlar təqdim edir. Turizmçilər də bildirirlər ki, adanın neftlə bağlı sənaye irsi turizm üçün maraqlı istiqamət ola bilər. Məsələn, köhnə neft qurğuları və sənaye tarixini əks etdirən məkanlar tematik turlar üçün istifadə edilə bilər. Təəssüf ki, bu istiqamətdə sistemli işlər görülmür.

### TURİSTLƏR ÜÇÜN ŞƏRAİT YOXDUR

Adada diqqət çəkən əsas problemlərdən biri turizm infrastrukturunun zəifliyidir. Barmaqla sayılası hostellər istisna olmaqla, gecələmək istəyən turistlər üçün hotel və ya digər yerləşdirmə obyektləri yoxdur. Nəqliyyat imkanlarının məhdud olması da ziyarətçilərin sayına təsir göstərən amillərdəndir.

Sahil boyunca fəaliyyət göstərən iaşə obyektlərinin sayı çox azdır. Mövcud kafe və restoranlar isə turistlərin tələbatını tam ödəmir. Əyləncə, istirahət və dəniz turizmi ilə bağlı xidmətlərin olmaması da turist cəlbinə imkan vermir.

Pirallahıda doğulub böyüyən Emil Mustafayev qədim tarixə malik adanın özünəməxsus xüsusiyyətləri ilə unikal məkan olduğunu qeyd edir: "Pirallahı maraqlı yerdir. Buranın özünəməxsus adətləri var. Sadəcə, turizm üçün inkişaf etməyib". E.Mustafayev nəqliyyatla bağlı problemin olduğunu bildirir: "Rayona avtobuslar işləsə də, adanın müəyyən ərazilərindən şəhərə getmək üçün Türkan qəsəbəsinə getməli, orada yenidən avtobus dəyişməlisən. Sakinlər məcbur qalıb taksi xidmətindən istifadə edirlər. Bu da təbii ki, baha başa gəlir. Taksi şirkətlərinə sifariş edəndə də bəzən bir saatdan çox gözləmək lazım gəlir. Adada taksi tapmaq çətindir". E.Mustafayev bildirir ki, adada turistlərə xidmət edəcək kafelər də çatışmır: "Kafelər az və bahadır. Kafedə yemək yeməsən, çay üçün müraciət edə bilməzsən. Turistin cəlbi üçün infrastruktur olmalıdır".

### DAXİLİ TURLAR ÜÇÜN REKLAMI YOXDUR

Daxili turizm meneceri Vasif Yadigarov hazırda Pirallahıya daxili turların olmadığını bildirir: "Təəssüf ki, adanın daxili turlar üçün reklamı yoxdur. Bəlkə reklam olunsa və araşdırılsa, potensial tapmaq olar. Bunun üçün adanın neft quyuları tərəfdə turistlər üçün muzey formasında bir obyekt yaratmaq lazımdır. Həmçinin turistlərin dəniz kənarı dincəlməkləri üçün yerlər, qidalanmaları üçün restoranlar olmalıdır".

Turizmçi Aytac Nəzərova da hazırda Pirallahının turistik nöqtə kimi tanınmadığını bildirir: "Pirallahıya bəzi bələdçilər və ya turizmçilər gedir. Ada balıq tutmağa həvəsi olanlar üçün də maraqlı ola bilər. Amma hazırda Pirallahı turistik nöqtə deyil. Məsələn, mənim qonaqlarım indiyə qədər adaya maraq göstərməyiblər. Çünki nə adanın təbliğatı var, nə də turistlər üçün düz-əməlli şərait... Adanın turizmə açıq olması, tanıdılması istiqamətində çox iş görülməlidir".

Görünən odur ki, iki əsrə yaxın neft tarixi olan adanın özəlliklərini nəinki xarici turistlərə, heç özümüzünkülərə də tanıda bilməmişik.




Vasif Yadigarov

Aytac Nəzərova

Fotolar: Mahir Rüstəmov/Global Photostock

# TƏRLƏMƏ İLƏ MÜBARİZƏNİN QIZIL QAYDALARI

Yay aylarında tərləmənin artması ilə antiperspirant və dezodorantlara tələbat da yüksəlir. Mütəxəssislər məhsul seçərkən tərkibə, dəri tipinə və düzgün istifadə qaydalarına diqqət yetirməyin həm effektivliyi artırdığını, həm də qıcıqlanma riskini azaltdığını bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Yayın gəlişi, qovurucu istilər və artan fiziki aktivlik hər kəsin ortaq problemi olan tərləmə mövzusunu da gündəmə gətirir. Təbii olaraq, bu aylarda kosmetika mağazalarının rəflərindəki antiperspirant və dezodorantlara tələbat pik həddə çatır. Lakin bu qədər rəngarəng qablaşdırmalar və fərqli tərkiblər arasında doğru seçim etmək heç də asan deyil. Sprey, roll-on, stik, yoxsa krem? Üzərində "alüminiumsuz", "təbii" və ya "orqanik" yazılan məhsullar həqiqətən daha təhlükəsizdirmi, yoxsa bu sadəcə bir marketinq gedişidir?

### ANTİPERSPİRANT VƏ DEZODORANT FƏRQİ

Dermatovenerolog Nuridə Qədiməliyevanın sözlərinə görə, insanlar yayda antiperspirantlardan daha çox istifadə etməyə başlayırlar. Hazırda satışda həm antiperspirantlar, həm də dezodorantlar mövcuddur: "Antiperspirantlar tər vəzilərini müvəqqəti olaraq tıxayaraq tərləmənin azalmasına kömək edir. Dezodorantlar isə pis qoxunun yaranmasında iştirak edən bakteriyaların çoxalmasının qarşısını alaraq yalnız qoxunun qarşısını almağa xidmət edir. Antiperspirant alarkən məhsulun tərkibi, aktiv maddələrinin növü, dərinin tipi və həssaslığı, tərləmənin dərəcəsi, gündəlik fiziki aktivlik, həmçinin məhsulun forması (sprey, roll-on, stik və ya krem) nəzərə alınmalıdır. Antiperspirantların əsas aktiv maddələri alüminium duzlarıdır. Satışda ən çox alüminium xlorohidrat və alüminium sirkonium tərkibli məhsullara rast gəlinir. Bu maddələr tər vəzilərinin axacaqlarında müvəqqəti tıxac yaradaraq tərləməni azaldır. Seçim zamanı tərkibində güclü ətir, spirt, propilen qlikol, bəzi konservant və boya maddələrinin olmamasına üstünlük verilməlidir. Xüsusilə həssas dəriyə sahib şəxslər "alcohol-free" qeyd olunan, ətirləndirici, efir yağları, propilen qlikol və boya maddələri olmayan məhsulları seçməlidirlər".

## Sprey, roll-on, stik yoxsa krem?

N.Qədiməliyeva bildirdi ki, müxtəlif formalı antiperspirantların hər birinin öz üstünlükləri və çatışmazlıqları var: "Spreylər tez quruyur, istifadəsi rahatdır və yapışqanlıq hissi yaratmır. Lakin onların tərkibində spirt daha çox olduğundan dəridə qıcıqlanma riski artır və istifadə zamanı tənəffüs yollarına daxil ola bilər. Roll-on məhsullar dəriyə daha bərabər yayıldığı və aktiv maddələrin dəri ilə təmasını yaxşı təmin etdiyi üçün daha effektiv hesab olunur. Bununla belə, onların quruması daha çox vaxt aparır və yapışqanlıq hissi yarada bilər. Stik antiperspirantlar rahat daşınır, yumşaq təsir göstərir və uzunmüddətli qoruma təmin edir. Ancaq isti havada əriməsi və paltarda iz buraxması mümkündür. Krem formalı məhsullar isə həssas dəri üçün daha uyğundur, qıcıqlanma riski azdır və təraşdan sonra istifadəsi daha rahatdır. Mənfi cəhəti tətbiqinin daha çox vaxt aparması və dəridə yağlılıq hissi yaratmasıdır. Dermatoloq olaraq gündəlik istifadə üçün əsasən roll-on və ya krem formalı antiperspirantları tövsiyə edirik. Bu formalar aktiv maddələrin dəri ilə təmasını daha yaxşı təmin edir, sprey məhsullarla müqayisədə qıcıqlanma riski daha aşağıdır və tərkiblərində adətən spirt də az olur. Həssas dərili şəxslərdə krem formaları daha uyğundur. Ümumiyyətlə, məhsul seçərkən dəri tipi, yaş və həyat tərzi nəzərə alınmalıdır. Məsələn, idmanla məşğul olan və çox tərləyən insanlarda daha güclü vasitələrə ehtiyac yarana bilər, yeniyetmələr üçün isə yüngül formulalar kifayət edir".

### "MƏHSUL GÜN ƏRZİNDƏ BİR DƏFƏ İSTİFADƏ OLUNMALIDIR"

Dermatovenerologun fikrincə, sağlam şəxslərdə antiperspirantların gündəlik istifadəsi təhlükəsiz hesab olunur: "Lakin məhsul gün ərzində yalnız bir dəfə, daha yaxşısı axşam saatlarında, tam təmiz və quru dəriyə nazik qat şəklində tətbiq edilməlidir. Axşam saatlarında tər vəzilərinin aktivliyi azaldığı üçün antiperspirant daha effektiv təsir göstərir. Təraşdan dərhal sonra istifadə etmək olmaz, ən azı bir saat gözləmək tövsiyə edilir. Gün ərzində məhsulu tərləyən dəri üzərinə təkrar-təkrar çəkmək, normadan artıq istifadə etmək və qıcıqlanma yarandıqda istifadəyə davam etmək insanların ən çox yol verdiyi səhvlərdəndir".

## "Bu hallarda məhsulun istifadəsi dayandırılmalıdır"

Həkimin sözlərinə görə, antiperspirantların üstünlükləri tərləməni və nəmlik hissini azaltması, gündəlik komfortu artırması, paltarlarda tər ləkələrinin yaranmasının qarşısını alması və hiperhidrozdan əziyyət çəkən insanların həyat keyfiyyətini yaxşılaşdırmasıdır. Mənfi tərəfləri isə bəzi insanlarda dəridə qıcıqlanma, qaşınma, yanma və qızartı yaratmasıdır: "Bəzi hallarda tər vəzilərinin tıxanması follikulit və hidradenit kimi problemlərin şiddətlənməsinə səbəb ola bilər. Bundan əlavə, məhsulun həddindən artıq və ya qat-qat tətbiqi dəri baryerini zədələyə bilər. Belə hallarda məhsulun istifadəsi dayandırılmalıdır. Yeniyetmələrdə pubertat dövründə tərləmə və bədən qoxusu artdığı üçün bu yaş qrupunda yüngül tərkibli və aşağı konsentrasiyalı antiperspirantların seçilməsi məqsədəuyğundur. Mövcud elmi məlumatlara əsasən, hamilə qadınlar da adi istifadə dozalarında antiperspirantlardan təhlükəsiz istifadə edə bilərlər. Lakin hormonal dəyişikliklər səbəbindən dəri daha həssas olduğuna görə ətirsiz məhsullara üstünlük verilməlidir".

### "ELMİ ƏSASI OLMAYAN MƏLUMATLARDIR"

N.Qədiməliyeva bildirdi ki, alüminium tərkibli antiperspirantlarla bağlı narahatlıqların hazırda elmi əsası yoxdur: "Cəmiyyətdə onların süd vəzi xərçəngi və ya Alzheimer xəstəliyi yaratdığına dair fikirlər olsa da, beynəlxalq dermatoloji və onkoloji təşkilatların məlumatlarına əsasən, normal istifadə şəraitində belə bir əlaqə sübut edilməyib".



Nuridə Qədiməliyeva

Futbol tarixində belə ardıcıl inkişaf yolu keçən başqa məşqçi xatırlamaq çətindir. Luis de la Fuenteni sadəcə dünya çempionu məşqçi adlandırmaq azdır. O, İspaniya futbolunun son onillikdə qazandığı bütün böyük uğurların əsas memarıdır.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
25 İYUL ŞƏNBƏ 2026
www.kaspi.az



# BÖYÜK UĞURLARIN ƏSAS MEMARI



David Raya hazırda dünya futbolunun ən yaxşı qapıçılarından biridir. “Arsenal”ın qolkiperi ötən mövsüm “topçular”ın uzun müddət davam edən çempionluq həsrətinə son qoymasında əsas pay sahiblərindən biri idi. O, komandasının həm İngiltərə Premyer Liqasında zirvəyə yüksəlməsində, həm də UEFA Çempionlar Liqasında finala qədər irəliləməsində həlledici fiqurlardan sayılırdı. İndi Raya həm də dünya çempionudur. Lakin bu titulun qəribə bir tərəfi var. O, dünya çempionatının bütün oyunlarını ehtiyat oyunçular skamyasında keçirərək qızıl medal qazanıb. Hazırda planetin ən yaxşı qapıçılarından biri hesab olunan futbolçu İspaniya millisində yalnız “2 nömrə”dir.

İlk baxışdan bu qərar məntiqsiz görünür. Karyerasının ən yaxşı dövrünü yaşayan, Avropanın elit klublarından birinin əsas qapıçısı olan futbolçu niyə əsas heyətdə yer almır? Bu sualın cavabı statistikadan çox, baş məşqçi Luis de la Fuentenin futbol fəlsəfəsindədir. Çünki İspaniya millisinin çalışdırıcısı üçün rəqəmlərdən əvvəl etimad anlayışı gəlir. Elə buna görə də David Raya ehtiyatda qalır, Unay Simon isə illərdir, əsas heyətin dəyişməz simalarından biridir. Bu yanaşmanın kökü on ildən artıq müddətə gedib çıxır.

## Dünya çempionu komanda bir gündə yaranmayıb

David Raya məsələsi Luis de la Fuentenin məşqçilik fəlsəfəsini anlamaq üçün ən yaxşı nümunələrdən biridir. Çünki o, bu komandanı hazır vəziyyətdə qəbul etməyib. Dünya çempionu olan kollektivin böyük hissəsini illərlə özü formalaşdırıb. Bu gün əsas heyətdə yer alan futbolçuların bir çoxu yeniyetmə yaşlarından onun rəhbərliyi altında çıxış edib.

Məhz buna görə İspaniyanın dünya çempionluğunu təhlil edərkən diqqəti təkcə finala və ya taktiki gedişlərə yönəltmək qüsurlu olardı. Bu uğurun əsasında federasiyanın illərlə qoruduğu sistem dayanır. De la Fuentenin komandası dünyanın ən mütəşəkkil kollektividir. Bu komanda isə illərlə eyni sistem daxilində formalaşıb və həmin sistemin mərkəzində Luis de la Fuente dayanıb.

## U-19-dan Dünya Kubokuna uzanan yol

Müasir futbolda milli komanda məşqçilərinin əksəriyyəti hazır nəsli qəbul edir. Onların işi müxtəlif klublarda yetişmiş futbolçuları bir araya gətirib qısa müddətdə nəticə əldə etməkdir. Luis de la Fuentenin yolu isə tamamilə fərqlidir. O, 2013-cü ildən etibarən İspaniya Futbol Federasiyasının aşağı yaş qruplarında işləməyə başlayıb və pillə-pillə yüksəlib. Mütəxəssis əvvəlcə U-19 millisini çalışdırdı və 2015-ci ildə bu komanda ilə Avropa çempionu oldu. Daha sonra o, U-21 yığmasına rəhbərlik etdi və 2019-cu ildə burada Avropanın ən güclüsü oldu. De la Fuente 2021-ci ildə Tokio Olimpiadasında İspaniyanı finala çıxararaq gümüş medal əldə etdi. Artıq o, əsas yığmaya tam hazır idi... Elə buna görə də Luis Enrikenin gedişindən sonra federasiya məşhur mütəxəssis axtarmadı. Çünki bu nəsli hamıdan yaxşı tanıyan insan elə uzun illər “qırmızılar”ın sisteminin içində olan de la Fuente idi. O, 2023-cü ildə əsas millinin başına gətirildi. Bu, İspaniya futbolunun növbəti hegemonluğunun başlaması ilə nəticələndi. Qısa müddət sonra “qırmızı furiya” UEFA Millətlər Liqasını qazandı. 2024-cü ildə komanda Avropa çempionu oldu. İndi isə İspaniya bir milli komandanın əldə edə biləcəyi ən böyük uğuru qazanaraq dünya çempionu adına yiyələndi. Bu, təsadüfi ardıcıllıq deyil. Heç bir təhlil olmadan belə aydındır ki, uğurların hər biri əvvəlkinin məntiqi davamıdır.

## Dünya çempionlarını özü yetişdirib

İspaniyanın dünya çempionu olan heyətinə baxanda maraqlı mənzərə görünür. Unay Simon, Mikel Merino, Mikel Oyarzabal, Dani Olmo, Martin Zubimendi, Fabian Ruis, Rodri, Robin le Normand və daha bir sıra futbolçular müxtəlif dövrlərdə Luis de la Fuentenin rəhbərliyi altında aşağı yaş millilərində çıxış ediblər. Bəziləri U-19-da, bəziləri U-21-də, bəziləri isə Olimpiya komandasında onunla birlikdə çalışıblar. Unay Simon və dünya çempionatında de la Fuentenin “coker”i olan Mikel Merino isə yuxarıda sadalanan bütün uğurlarda onun rəhbərliyi altında top qovublar.

Bu futbolçular üçün de la Fuente yeni məşqçi deyil. Çalışdırıcı onların futbolçu kimi formalaşdığı illərin ayrılmaz hissəsidir. İlk beynəlxalq turnirləri, ilk böyük qələbələri, ilk uğursuzluqları, milli formanı daşımağın məsuliyyəti... Bütün bunlar onun rəhbərliyi altında yaşanıb. Buna görə də İspaniya millisindəki münasibətlər adi məşqçi-futbolçu əlaqəsindən daha dərindir. “Niyə Raya yox, Simon?” sualının cavabını burada daha konkret vermək olar. Ola bilsin ki, “Arsenal”ın qolkiperi fərdi keyfiyyətlərinə görə daha üstündür, lakin de la Fuente üçün qapıçı müdafiənin lideridir.

## Karyerasının zirvəsi dünya çempionluğudur

Təbii ki, Luis de la Fuentenin məşqçi kimi karyerasının zirvəsi dünya çempionluğudur. Lakin bu uğuru xüsusiləşdirən əsas məqam bütün bir nəsli məhz özünün yetişdirməsidir. Dünya çempionatı oyunlarını təhlil etsək, İspaniyanın pressinqi, mövqe oyunu və topa nəzarətindən geniş şəkildə bəhs etmək olar və bütün bunlar dünya çempionluğunun vacib elementləridir. Ancaq həmin taktiki modelin bu qədər qüsursuz işləməsinin səbəbi futbolçuların onu illərlə eyni prinsiplərlə mənimsəməsidir.

Baş məşqçi eyni nəsil oyunçularla əvvəl U-19-da, sonra U-21-də, ardınca Olimpiya Oyunlarında uğur qazandı, daha sonra həmin futbolçuların böyük hissəsini əsas milliyə gətirərək UEFA Millətlər Liqasını, Avropa çempionatını və nəhayət, Dünya Kubokunu qazandı. Futbol tarixində belə ardıcıl inkişaf yolu keçən başqa məşqçi xatırlamaq çətindir. Elə buna görə də Luis de la Fuenteni sadəcə dünya çempionu məşqçi adlandırmaq azdır. O, İspaniya futbolunun son onillikdə qazandığı bütün böyük uğurların əsas memarıdır.